UNI-37_27 IYUl-QARA.qxd 10/19/2023 10:03 PM Page 1

UNİKAL

№39 (2173) 20 oktyabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru

# Qərb Azərbaycana qarşı yeni "erməni kartı"ndan istifadə etməyə çalışır



Səh.7



## Taleh Kazımov tənqid hədəfinə çevrildi

*Azərbaycan Mərkəzi Bankı (AMB) növbəti dəfə ictimaiyyətdə təəccüblə qarşılanan qərara imza atıb: dünən "Muğan Bank" ASC ləğv edilib. Buna səbəb kimi bankın məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olduğu, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olması, cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyi, habelə bankın daxili idarəetmə və nəzarət prosedurlarının adekvat olmadığı göstərilib. Xatırladaq ki, bir neçə ay əvvəl "Günay Bank" da eyni səbəbdən bağlanmışdı. Lakin qəribə orasındadır ki, Mərkəzi Bankın rəhbəri Taleh Kazımov son aylardakı açıqlamalarında ölkədə hər hansı bankın bağlanma ehtimalını bir qayda olaraq istisna edirdi. Məsələn, uçot dərəcəsi parametrlərində dəyişikliklərə həsr olunmuş mətbuat konfransında baş bankir demişdi ki, "Bu gün Azərbaycanın maliyyə sektorunda bankların bağlanması üçün risk müşahidə olunmur". O, əlavə eləmişdi ki, Mərkəzi Bank ilk növbədə maliyyə bazarının sabitliyinin təmin edilməsini hədəfləyir.*

Səh.8

## "Bu gün istənilən danışıqlar prosesində Azərbaycan diqtə edən tərəfdir"



*Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, deputat Arzu Nağıyev "Unikal"a müsahibə verib. O, Azərbaycan-Türkiyə birgə taktiki təlimlərinin əhəmiyyətindən, bu təlimlərdə iştirak edəcək zirehli texnikaların üzərində nida işarəsinin çəkilməsindən...*

Səh.4

## "Bütün məsələlərin bir sənədlə həllini tapması realistik yanaşma deyil"



*Oktyabr ayının sonuna yaxın Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında görüş keçiriləcəyi gözlənilir. Diqqət çəkən məqamlardan biri odur ki, Paşinyan iki gün əvvəl Avropa Şurası Parlament Assambleyasındakı çıxışında...*

Səh.3

## Dövlət və ictimai maraqların vəhdət təşkil etdiyi ölkə



*Azərbaycanda dövlət və cəmiyyət maraqlarının mükəmməl vəhdəti mövcud olsa da, bəzən bu məsələdə də müəyyən fikir ayrılıqları müşahidə olunur. Dövlətin ölkənin taleyüklü məsələsi ilə bağlı verdiyi qərar bəzən müzakirə mövzusuna çevrilir. Hətta müxalif qüvvələr tərəfindən verilmiş qərarın...*

Səh.11

UNI-37_27 IYUI-QARA.qxd 10/19/2023 10:04 PM Page 2



# "Qızımın sosial şəbəkələrdə olmasını istəmirəm" - Məleykə Əsədova



***"Qızım deyir ki, universitetdə hamının instaqram və TikTok-u var, icazə ver mən də açım. Həmin sosial şəbəkələrin əleyhinəyəm, qızıma icazə vermirəm istifadə etsin. Gülərin nə instaqram, nə də TikTok-u var. Oradan nə öyrənmək olar? Kaş ki, TikTok həmişəlik bağlansın".***

Bu sözləri Xalq artisti Məleykə Əsədova "İncə səhər" proqramında deyib. Aktrisa sosial şənəkələrə qızı Gülərin girməsini qadağan etməsindən danışıb: "Gülərin sosial şəbəkələrdə olmasını istəmirəm. Çünki orada elə şeylərə rast gəlinir ki... Qəlbini qırmaq istəmirəm, böyük qızdır. 18 yaşı var. Amma ona icazə vermirəm. Düşünürəm ki, qızım sosial şəbəkələrə daxil olsa, dərsləri qalacaq kənarda. Bu dəqiqə uşaqların gözləri telefondan, internetdə olmaqdan zəifləyib. Sosial şəbəkəyə girməkdənsə, dil öyrənsin".

# "Onların sevgisinə acam"- Kərim Abbasov valideynlərindən gileyləndi



***Müğənni Kərim Abbasov şəxsi həyatı ilə bağlı açıqlaması ilə gündəmə gəlib.***

Övladına yaxşı ata olduğunu deyən müğənni valideynlərindən gileylənib. "Mən çox yaxşı atayam. Oğlumla heç vaxt reklam qazanmaram. Bəzən nəyisə çəkib, paylaşaram. Ancaq bizim evdə hamı bir-birini ancaq qucaqlayır, sənə qurbanla danışırıq. Uşağın yanında heç vaxt yoldaşımla səsimizi qaldırmamışıq. Oğlum ən çox mənlə vaxt keçirtməyi xoşlayır. Birlikdə oyunlar oynayırıq, futbola gedirik. Onu hər səhər öpüb, qucaqlayaraq oyandırıram",-deyə müğənni bildirib.

K.Abbasov qeyd edib ki, valideynlərindən belə nəvaziş görməyib: "Mənim atam çox yaxşı ata olub. Ancaq kişilər sevgisini gizlədir deyə məni bir dəfə qucaqlamadı. Anamın da çox sərt xarakteri var. Elə istəyirdim ki, onlar məni elə əzizləsin. Həmişə çox ehtiyacım olub. Valideyn sevgisinə acam".



# "Niyə qadınlar özlərini belə bədbəxt edir?" - Zümrüd Qasımova

***Xəbər verdiyimiz kimi, Xalq artisti Faiq Ağayev, müğənni Samir Bağırovun kliplərinə çəkilən, bir vaxtlar məşhur olan model Rövşanə Kərimovanın (şou-biznesdə Təhminə kimi tanınırdı - red.) anası efirə çıxaraq, qızının narkotik aludəçisi olduğunu deyib və kömək istəyib.***

Axşam.az-ın məlumatına görə, aktrisa Zümrüd Qasımova sözügedən videonu paylaşaraq, hadisəyə münasibət bildirib. Qadınlara səslənən sənətçi "Nəyin çatmırdı? Nəyin? Niyə qadınlar özlərini belə bədbəxt edir" deyə, paylaşımında yazıb.

Qeyd edək ki, sözügedən hadisə "Elgizlə izlə" verilişində yayımlanıb. R.Kərimovanın anası qızının bir vaxtlar çox imkanlı olduğunu, daha sonra narkotikə qurşandığını, çox sayda evlərini satdığını bildirib.

# Mələkxanım Ramalı qızının nişanına bu səbəbdən çağırmayıb

***Xəbər verdiyimiz kimi, müğənni Ramal İsrafilov bir neçə gün əvvəl bibisi, Xalq artisti Mələkxanım Eyubovanın onu qızı Nəzrinin nişan məclisinə dəvət etmədiyini bildirmişdi.***



Axşam.az xəbər verir ki, sənətçi "7 tamam" verilişində məsələyə aydınlıq gətirib. O, nişanın ailə arasında keçirildiyini qeyd edib:

"Ramal ailəmizin gözü, başımızı tacıdır. Övladlarım Hökümənin və Cəfərin də toylarını Ramal aparıb. Onsuz bizim heç bir işimiz olmayıb. Nişanda ancaq Nəzrinin rəfiqələri, oğlan və qız evi oldu. İstədik ki, heç kim bilməsin. Ramalın şənbə günü toyu var idi. Amma Nəzrinin toyunda Ramal orada olacaq". Qeyd edək ki, Nəzrin müğənni Mərdan Kazımovla nişanlanıb.

# Yaqutu öldürən həyat yoldaşı barədə qərar verildi

***Müğənni Yaqut Nərimanı (Həşimova) qətlə yetirməkdə ittiham olunan əri Anar Həşimov hakim qarşısına çıxarılıb.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, Nizami Rayon Məhkəməsində keçirilən iclasda prokuror təqsirləndirilən şəxs barədə həbs qətimkan qərarı verilməsini istəyib. Məhkəmə istintaq orqanının təqdimatını əsaslı hesab edib. Qərara əsasən, A.Həşimov barədə 4 aylıq həbs qətimkan tədbiri seçilib. Qeyd edək ki, 39 yaşlı Anar Həşimovun Nizami rayonunda birgə yaşadıqları mənzildə aralarında yaranmış mübahisə zamanı həyat yoldaşı, 38 yaşlı Yaqut Həşimovanı bıçaq xəsarəti yetirməklə qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.Faktla bağlı Nizami Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb, Anar Həşimov şübhəli şəxs qismində tutulub.

UNI-37_27 IYUI-QARA.qxd 10/19/2023 10:04 PM Page 3





# "Muğan Bank" mənfəətə həsrət qalan 3 bankdan biri olub - Deputat

***"Mərkəzi Bank daha bir bankın lisenziyasını ləğv etdi. "Muğan Bank" artıq fəaliyyət göstərməyəcək. Bankın idarə olunması üzrə bütün səlahiyyətlər müvəqqəti inzibatçıya keçib".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. Deputat bildirib ki, Mərkəzi Bankın məlumatına görə, bu bankın ölkənin bank sisteminin aktivlərində xüsusi çəkisi 1,4%, kredit portfelində 2%, sektorun öhdəliklərində isə cəmi 1,3% təşkil edir:

"Rəqəmlər göstərir ki, "Muğan Bank"ın müflis olması bank sektorunun maliyyə dayanıqlığı üçün təhdid yaratmır. Müflis elan edilən bankın internet səhifəsi də artıq aktiv deyil. Mərkəzi Bankın elan etdiyi rəqəmlər ilə yanaşı "Muğan Bank"ın fəaliyyəti ilə bağlı digər bir sıra göstəriciclər də diqqəti cəlb edir. 1 sentyabr 2023-cü il tarixinə olan məlumata görə, aktivlərin həcminə görə "Muğan Bank" Azərbaycanda fəaliyyət göstərən 24 bank arasında 16-cı sırada olub. Yəni, aktivlərin həcminə görə banklar arasında ən sonuncu yerlərdə qərarlaşmamışdı. Bankın aktivləri 647 milyon 971 min manata bərabər idi. Bununla yanaşı, aktivlərdə azalma faizinə görə ən pis göstəriciyə malik olub. "Muğan Bank"ın həmin müddətdə aktivləri 18.9 faiz azalıb. Digər tərəfdən, bu ilin ilk 9 ayında 3 bank zərərlə işləyib. 1 milyon 287 min zərəri qeydə alınan "Muğan Bank" həmin müddətdə mənfəətə həsrət qalan 3 bankdan biri olub".

V.Bayramov qeyd edib ki, Mərkəzi Bankın açıqlamasında bankın ümumi kredit portfelinin həcmi açıqlanmayıb: "Bununla yanaşı, baş bank bildirib ki, 2023-cü ilin III rübünün sonuna bank üzrə sığortalanmış (kompensasiya olunan) əmanətlər 216,7 milyon manat təşkil edir. Mərkəz Bank elan edib ki, bankın əmanətçilərinin say etibarı ilə 99,9%-nin əmanətləri kompensasiya olunacaq. Bununla yanaşı, üçüncü rübün yekunlarına əsasən, "Muğan Bank"da depozitlərin həcmi 322 milyon 478 min manat olub. Əgər son 18 gün ərzində əmanət portfelində dəyişiklik baş verməyibsə, o zaman "Muğan Bank"ın 105 milyon 778 min manat sığortalanmamış əmanəti olub. "Muğan Bank"ın müflis olması bir daha göstərir ki, vətəndaşlarımız əmanət yerləşdirən zaman həm bankın maliyyə göstəricilərinə, həm də hesabatlılığa xüsusi diqqət yetirməlidirlər. Mövcud qaydalara əsasən, məbləği 100 min manatdan çox olmayan manatla 12, xarici valyuta ilə 2.5 faizədək dividend ödənilən əmanətlər sığortalanır. Bu baxımdan, əmanətləri sığortalanan paket çərçivəsində banklarda yerləşdirməklə risklərdən qoruna bilərsiz".

***Seymur Əli***

# 106 milyon manatlıq vəsaitin taleyi sual atındadır

***Lisenziyası ləğv edilən "Muğan Bank"da depozitlərin bir hissəsinin taleyi sual altındadır.***

"Unikal" xəbər verir ki, bu barədə iqtisadçı ekspert Samir Əliyev bildirib. Ekspert qeyd edib ki, oktyabr ayının 1-i tarixinə "Muğanbank" ASC-nin depozit portfelinin həcmi 322.5 milyon manat olub: "Mərkəzi bank açıqlamasında bildirib ki, bu müddətə Bank üzrə sığortalanmış əmanətlər 216,7 milyon manat təşkil edir. Deməli, hardasa, 106 milyon manatlıq vəsaitin taleyi sual altındadır".

# Taleh Kazımov tənqid hədəfinə çevrildi

## Bir neçə ay öncə heç bir bankın bağlanmayacağını deyən baş bankir daha bir bankı ləğv etdi

***Azərbaycan Mərkəzi Bankı (AMB) növbəti dəfə ictimaiyyətdə təəccüblə qarşılanan qərara imza atıb: dünən "Muğan Bank" ASC ləğv edilib. Buna səbəb kimi bankın məcmu kapitalının miqdarının banklar üçün müəyyən edilmiş minimum miqdarından az olduğu, məcmu kapitalının adekvatlıq əmsalının 3 faizdən az olması, cari fəaliyyətini etibarlı və prudensial qaydada həyata keçirmədiyi, habelə bankın daxili idarəetmə və nəzarət prosedurlarının adekvat olmadığı göstərilib.***

Xatırladaq ki, bir neçə ay əvvəl "Günay Bank" da eyni səbəbdən bağlanmışdı.



Lakin qəribə orasındadır ki, Mərkəzi Bankın rəhbəri Taleh Kazımov son aylardakı açıqlamalarında ölkədə hər hansı bankın bağlanma ehtimalını bir qayda olaraq istisna edirdi. Məsələn, uçot dərəcəsi parametrlərində dəyişikliklərə həsr olunmuş mətbuat konfransında baş bankir demişdi ki, "Bu gün Azərbaycanda maliyyə sektorunda bankların bağlanması üçün risk müşahidə olunmur". O, əlavə eləmişdi ki, Mərkəzi Bank ilk növbədə maliyyə bazarının sabitliyinin təmin edilməsini hədəfləyir.

"Günay Bank"ın ləğvindən bir müddət sonra, daha dəqiq desək, iyul ayında isə T.Kazımov bəzi bankların bağlanma ehtimalı barədə açıqlamalar verən iqtisadçılara qarşı çıxmış, hətta belə açıqlamalara bir qədər sərt tonda reaksiya vermişdi. Sitat: "Azərbaycanda hər hansı bankın bağlanacağını deyən ekspertlər fakt göstərməli, iddialarını əsaslandırmalıdır. Mən fərziyələri şərh etmirəm. Hazırda ölkədə ciddi problemi olan bank yoxdur".

Əslində Elman Rüstəmovdan sonra AMB rəhbərliyinə T.Kazımovun gətirilməsi də ekspertlər arasında və bank sektorunda belə qiymətləndirilirdi: bankların artıq "ənənə" halını almış bağlanma təcrübəsinə son qoyulacaq. Çünki yeni baş bankirin bank sektorunu ləğvetmə yolu ilə sağlamlaşdırma tərəfdarı olmadığına dair qənaət hakim idi. Elə onun müxtəlif vaxtlardakı çıxışları və müsahibələri də həmin qənaəti daha da möhkəmləndirirdi. Məsələn, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasındakı çıxışı zamanı T.Kazımov bildirmişdi ki, bankların bağlanmasına həssas yanaşır. Sitat: ""Həcmindən asılı olmayaraq, banklar var ki, problemlidir, bütün maliyyə sektoruna xələl gətirir. Həm keçmiş bankir kimi, həm də Mərkəzi Bankın sədri kimi bankların, sığorta şirkətlərinin bağlanmasını istəməzdim. Böyük problemləri olan təşkilatlarda işlər görülməlidir, görülmürsə bağlanmaldır".

Lakin "Günay Bank" təcrübəsindən aydın oldu ki, Mərkzi Bankın hazırkı rəhbərliyi ləğvetmə qərarlarını heç də bu kontekstdə qəbul eləmir. Əvvəla, adıçəkilən bank bağlanmazdan bir müddət öncə onun sahibi Mahmud Məmmədov mayın 7-də bildirmişdi ki, Bankın ehtiyacı olsa da, Mərkəzi Bank "Günay Bank"-a vəsait ayırmayıb. Sitat: "Elə banklar vardı ki, 500-600 milyon manat kredit verirdi, bizə isə 1-2 milyon manat kredit verməyi də çox görürdü".

İkincisi, bank-maliyyə məsələləri üzrə ekspert Əkrəm Həsənov mediaya açıqlamasında bildirmişdi ki, obyektiv meyarlara görə heç bir bankın bağlanması hazırda gözlənilən deyildi. Digər tərəfdən isə: "Günay Bank" ölkənin bəlkə də ən problemsiz bankıdır. Kiçik bankdır. Nə əmanətçiləri, nə də borcluları ilə ciddi problemi var".

Həm M.Məmmədovun, həm də Ə.Həsənovun dediklərindən belə aydın olur ki, AMB rəhbərinin "Böyük problemləri olan təşkilatlarda işlər görülməlidir" açıqlaması havada qalıb. Ya bu işlərin görülməsinə imkan yaradılmayıb, dəstək verilməyib, ya da baş bankirin sözləri formal xarakter daşıyıb. Nəticə etibarilə isə Mərkəzi Bankın proseslərə yanaşmasında Elman Rüstəmovun dövründən bəri böyük ölçüdə dəyişən heç nə olmadığı barədə təəssürat yaranır. Əgər bir ölkənin baş bankının rəhbəri cəmi üç ay öncə ölkədə hər hansı bankın bağlanma təhlükəsi ilə üz-üzə olmadığını deyir, ardınca da iki bank bağlanırsa, deməli, ortada ciddi problem var. Bu ya işbilməzlikdir, ya da AMB-də sədr dəyişikliyindən sonra bank sektorunda bütün işlərin yoluna düşdüyü barədə yanıldıcı təəssürat yaratmaqdır. Hər iki halda isə bunun əziyyətini bank sektorunda çalışanlarla pullarını banklara əmanət edənlər çəkir.

E.Rüstəmovun oxşar idarəçiliyi ucbatından Azərbaycanda banklara inam xeyli sarsılmışdı. İnsanlar pullarını "yastıq altında" saxlamağa üstünlük verirdilər. Mərkəzi Bankın sədri dəyişəndən sonra sarsılan inamın bərpasına ümid böyük idi. Lakin Taleh müəllim 3 ay öncə heç bir bankın bağlanmayacağını anons edib hər kəsi arxayın salır, sonra da 5 ay içində ikinci dəfə bir bankın bağlanma qərar verirsə, nəyə və niyə ümid edəsən ki?!

***P.S. Yeri gəlmişkən, vaxtilə Elman müəllim 2 dəfə devalvasiya olmayacağı barədə açıqlama vermiş, hər açıqlamadan bir neçə gün sonra manat ucuzlaşmışdı. Ona görə də Rüstəmov nə vaxt devalvasiya olmayacağını desə, insanlar yarızarafat, yarıgerçək söyləyirdilər: "Deməli, olacaq!" Oxşar vəziyyət Taleh müəllimlə bağlı da yaranır. Bu gedişlə, baş bankir nə vaxt heç bir bankın bağlanmayacağını söyləsə həmin dəqiqə hamını yalnız bir sual düşündürəcək: "Görəsən, indi hansı bank bağlanacaq?.."***

***Sənan Mirzə***

UNI-37_27 IYUl-QARA.qxd 10/19/2023 10:04 PM Page 4



# Qərb Azərbaycana qarşı yeni "erməni kartı"ndan istifadə etməyə çalışır



***Qarabağdakı separatçı-terrorçu rejimin ləğvindən sonra Xankəndi və ətrafından könüllü olaraq gedən ermənilər Ermənistanda da yaşamaq istəmirlər. Bu barədə Ermənistan mediası məlumat yayıb. Qeyd olunur ki, 20 gün ərzində Qarabağdan köçən ermənilər arasında minlərlə şəxs xarici ölkələrə üz tutub.***

Bu barədə danışan Ermənistan Baş naziri Nikol Paşinyan deyib ki, Qarabağdan gələn ermənilər arasında xaricə üz tutanların sayı indiyə qədər 3 mini keçib. Qarabağdan köçənlərin hesabına xüsusilə Zəngəzur vilayətində son illər kəskin şəkildə azalan əhalinin artımını təmin etməyə çalışan Paşinyan onlara ölkəni tərk etməmək barədə çağırış edib.

Belə bir məqamda isə Avropa Şurası Nazirlər Kabineti Azərbaycana ermənilərin Qarabağa təhlükəsiz qayıdışına şəraitin yaradılması çağırışını edib. Bildirilib ki, Azərbaycan Qarabağ ermənilərinin insan hüquqlarını, əsas azadlıqlarını və təhlükəsizliyini, o cümlədən onların öz evlərində hədə-qorxu və ayrı-seçkilik olmadan yaşamaq hüququnu təmin etməli, habelə onların könüllü, təhlükəsiz və davamlı yaşaması üçün şərait yaratmalıdır.

Bu barədə Aİ Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağ ermənilləri ilə sülh şəraitində yaşamaq və onların hüquqlarını qorumaq istəyi ilə bağlı açıqladığı bəyanatları diqqətə çatdırıb. Aİ həm Azərbaycanın, həm də Ermənistanın suverenliyi, sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyib.

Qalib dövlətin rəhbəri olaraq, Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Azərbaycan xalqı ermənilərlə reinteqrasiyaya, birgəyaşayışa hazırdır. Bunun üçün şərtlər bəllidir - ermənilər Azərbaycan Konstitusiyasını tanımalıdırlar. O cümlədən cinayət törətməyən ermənilər Azərbaycanda yaşaya bilərlər. Dövlətin digər rəsmi şəxsləri də bunu bəyan ediblər ki, ermənilər geri dönə bilərlər.

Əslində, bütün dünyaya da bəllidir ki, heç kim ermənilərə "buradan çıxmalısınız" tələbi qoymayıb. Onların Qarabağı tərk etməsi könüllü köçdür. Məlum olduğu kimi, antiterror tədbirlərindən sonra Qarabağda yaşayan ermənilər mülkiyyətlərinin mühüm hissəsini - nəqliyyat vasitələrini, əşyalarını götürərək sağlam şəkildə bölgəni tərk etdilər. Həmin zaman verdikləri açıqlamalar da göstərdi ki, onlar öz xoşları ilə gedirlər. Belə olan şəraitdə Azərbaycan haqlı olaraq ermənilərə öz sakinləri kimi müraciət edir ki, geri dönə bilərlər. Bu mənada Avropa Şurası Nazirlər Kabinetinin məlum çağırışı yersiz və əsassız səs-küydən başqa bir şey deyil.

Siyasi şərhçi Asif Nərimanlı fikirlərini bölüşərkən deyib ki, Avropa Şurası Nazirlər Kabineti Azərbaycana ermənilərin Qarabağa təhlükəsiz qayıdışı ilə bağlı çağırışında bir neçə ziddiyyətli məqam xüsusilə diqqət çəkir: "Birincisi, Azərbaycan ermənilərin Qarabağı tərk etməsini istəmədiyi halda "deportasiya" ittihamı ilə üzləşir. İkincisi, Azərbaycan ermənilərin Qarabağa təhlükəsiz şəraitdə qayıdışına şəraitin yaradıldığını dilə gətirsə də, Qərb ölkələri - Avropa strukturları sanki bunu eşitmir və "qayıdışın təmin edilməsi" haqda eyni sözləri mütəmadi olaraq təkrarlayır. Üçüncüsü, ermənilərin Qarabağa qayıdışı çağırışı edən Avropa İttifaqı bu "qaçqınların" təminatı üçün Ermənistana milyonlarla avro pul ayırır. Dördüncüsü, Ermənistan hakimiyyəti ermənilərin ölkəni tərk etməsini istəmir: Paşinyan verdiyi açıqlamada bildirib ki, artıq 3000 erməni başqa ölkəyə gedib, hərçənd, onların heç bir ölkəyə getməsini istəmir və Ermənistanda qalması üçün hər şeyi edirlər.

Bu mənzərə sual yaradır: Ermənistan ümumiyyətlə ermənilərin Qarabağa qayıdışını istəyirmi? Paşinyanın son açıqlaması, eləcə də Bakının açıq mövqeyinə baxmayaraq, Aİ-nin İrəvana "qaçqınlara yardım" adı altında maliyyə ayırması ermənilərin qayıdışında çox da maraqlı olmadıqlarını deməyə əsas verir. "Ermənilərin qayıdışı" məsələsinin Ermənistan və Avropa strukturları tərəfindən Azərbaycana qarşı davamlı ittiham motivi olaraq istifadə edildiyi ortadadır və bunun davamlı olacağı gözlənilir. Ermənistan hakimiyyəti isə bundan həm də maliyyə yardımı almaq üçün istifadə edir".

MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə də ermənilərin Qarabağa qayıdışının tərəfdarı olmadığını bildirib: "Ermənilərin geri qayıtmasına şərait yaratsaq, gələcək nəslin həyatını minalamış oluruq. Ermənilər bizə qarşı o qədər dərin nifrət və kin bəsləyir ki, biz bunu 100 il ərzində yaşamışıq. Aparılan düzgün siyasət və geopolitik situasiya imkan verdi ki, ərazilərimizi işğaldan azad edək və suverenliyimizi bərpa etdik. Həmçinin ermənilərin çıxıb getməsinə nail olduq. Ermənilər bizə qarşı üç müharibə, vandalizm, faşizm, etnik təmizləmə və soyqırım edib. Onları bağışlamaq olarmı?! Cənab prezident İlham Əliyev Xankəndində Arayikin otağına daxil olanda pəncərəni açıb, əli ilə erməni iyinin çıxmasını açıq şəkildə göstərdi. Ermənilərin yenidən Qarabağa qayıdıb, bizim yerləri iylәndirməsinə şərait yaratmamalıyıq. Cənab prezident İlham Əliyev pəncərəni açmaqla o işarəni verdi. Kim erməni iyini istəyir, yol açıqdır gedib Yerevanda ciyərlərinə çəksin. Cənubi Qafqazda uzun müddətli sülh mümkün deyil. Bu region böyük güclərin maraqlarının toqquşma məkanıdır. Ona görə də ermənilərin geri qayıtmasına imkan verməməliyik".

Politoloq onu da vurğulayıb ki, Ermənistan Baş naziri Nikol Paşinyan Azərbaycanla sülh müqaviləsinin bağlanması istiqamətində aparılacaq danışıqlarda Qarabağa ermənilərinin qayıtması fonunda Qarabağa muxtariyyətini danışıqlar masasına gətirə bilər. Onun fikrincə, Ermənistan tərəfi Samvel Babayanı bu istiqamətdə təlimatlandırıb: "Bununla Azərbaycana təzyiq etmək və güzəştlər qzanmaq istəyirlər. Ermənistan rəhbərliyi hələ də fərqində deyil ki, 30 il ərzində işğal olunmuş ərazilərdə ordu və qondarma qurum qurmasına baxmayaraq 44 gün və 23 saat ərzində Azərbaycan onları tam məhv etdi. Əgər, Ermənistan belə bir avantürist şərtlə çıxış edəcəksə, sülh danışıqları müsbət nəticə verməyəcək".

***M.İbrahimli***



## "Fond bankın olan-qalan əmlakının da başına daş salır" - Ekspert

***Xəbər verdiyimiz kimi, Azərbaycan Mərkəzi Bankının qərarı ilə "Muğan Bank" ASCnin lisenziyası ləğv edilib.***

Hazırda vətəndaşları maraqlandıran əsas suallardan biri "Muğan Bank"dakı əmanətlərin taleyinin necə olacağı ilə bağlıdır.

Görəsən, əmanətlərin qaytarılmasında hər hansı problem olacaqmı?

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən iqtisadçı ekspert Əkrəm Həsənov "Muğan Bank"ın bağlanmasının doğru qərar olduğunu bildirib: "Mən "Günay Bank"ın bağlanmasını düzgün hesab etmirdim. "Muğan Bank"ın bağlanmasının isə doğru qərar olduğu düşüncəsindəyəm. "Günay Bank" bağlananda mən "Muğan Bank"da vəziyyətinin daha pis olduğunu bildirmişdim. Yəni, qeyd etmişdim ki, niyə o bağlanır, digəri isə yox? "Muğan Bank"da çoxlu problemli kreditlər var idi. Həmçinin idarəetmə də bərbad vəziyyətdə idi. Sadə vətəndaşlar əmanətlərdən ötrü narahat olmamalıdırlar. Qorunan, yəni, sığortalanan əmanətlər kompensasiya ediləcək. Digər tərəfdən, bu, sahibkarlar üçün problemə çevriləcək, çünki Azərbaycanda bağlanan banklarda sahibkarların qalan vəsaitləri bir qayda olaraq geri qaytarılmır. Burada iki səbəb var. Birinci səbəb ondan ibarətdir ki, bəzi banklarda pul yoxdur. Məsələn, "Bank Standard"da, "Atabank"da, və "Texnika Bank"da belə idi. Böyük ehtimalla "Muğan Bank" da belə bankların sırasındadır. Bəzilərində isə, yəni hansı banklarda ki pul da var, Əmanətlərin Sığortalanması Fondunun qeyri-şəffaf və qanunsuz fəaliyyəti nəticəsində orada olan-qalan əmlakın da başına daş salındığı üçün sahibkarlara pul çatmır", - deyə o qeyd edib.

***M.İbrahimli***

## "Fransa qanunları ilə olan heç bir muxtariyyəti qəbul etmirik"

***"Korsikaya muxtariyyət təklif edilib, lakin onlar bundan imtina edib".***

"Unikal" trend-ə istinadən xəbər verir ki, bu barədə Qvadelupanın azadlığı naminə xalq birliyinin nümayəndəsi Yakob Bisep mətbuat konfransı zamanı deyib.

O qeyd edib ki, muxtariyyət o deməkdir ki, Fransa konstitusiyası çərçivəsində yaşayacağıq. "Biz Fransa qanunları ilə olan heç bir muxtariyyəti qəbul etmirik", - deyə o əlavə edib.

Qeyd edək ki, sabah Bakıda Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə "Neokolonializm: İnsan Hüquqlarının Pozulması və Ədalətsizlik" adlı beynəlxalq konfrans keçiriləcək.

Bakı Təşəbbüs Qrupu (BTQ) Azərbaycan Respublikasının sədrlik etdiyi Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun nazirlər toplantısı çərçivəsində 6 iyul 2023-cü ildə Bakıda "Müstəmləkəçiliyin tamamilə aradan qaldırılmasına doğru" adlı konfransın iştirakçıları tərəfindən yaradılıb.

BTQ XXI əsrdə hələ də müstəmləkəçilikdən əziyyət çəkən dünyanın müxtəlif bölgələrində yerləşən xalqların azadlıq uğrunda apardıqları mübarizəyə dəstək verir.

UNI-37_27 IYUI-QARA.qxd 10/19/2023 10:04 PM Page 5



# TÜRKSOY-un Baş katibi İlham Əliyevi təbrik edib



***TÜRKSOY-un Baş katibi Sultan Raev Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, təbrikdə deyilir: "Hörmətli cənab Prezident! Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş katibliyi, üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Zati-alinizi və qardaş Azərbaycan xalqını 18 oktyabr - Müstəqilliyin Bərpası Günü münasibətilə ürəkdən təbrik edirəm.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün onun layiqli davamçısı olaraq Zati-aliniz tərəfindən uğurla davam etdirilir. Sizin müəyyənləşdirdiyiniz uğurlu inkişaf strategiyası nəticəsində Azərbaycan siyasi, iqtisadi, sosial və mədəni sahələrdə böyük tərəqqi və inkişafa nail olmuşdur.

Zati-alinizin rəhbərliyi ilə dövlət müstəqilliyinin bərpasının 32-ci ildönümünün qeyd olunduğu bu il Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmişdir. Bu gün Azərbaycanın üçrəngli Dövlət Bayrağı ölkənin bütün şəhər və rayonlarında qürurla dalğalanır.

TÜRKSOY-un yaradılmasının 30-cu ildönümü münasibətilə Bakıda keçirilən təntənəli mərasimə ünvanladığınız təbrik məktubu bizi daha da ruhlandırmış və ortaq türk mirasının qorunması, təbliği ilə bağlı gerçəkləşdirəcəyimiz irimiqyaslı layihələrdə Azərbaycanın gələcəkdə də TÜRKSOY-a geniş dəstək verəcəyinə əminliyimizi artırmışdır.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına sülh, tərəqqi və əmin-amanlıq arzulayıram".

# Gələn il əhalinin Şuşaya köçürülməsinə başlanılacaq

***"Gələn ilin birinci rübündə əhalinin Şuşaya köçürülməsinə başlanılacaq. Bu, 400-ə yaxın ailəni əhatə edəcək".***




"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov deyib.

O bildirib ki, bu yaxınlarda genişmiqyaslı yol infrastrukturunun inşası prosesinə başlanılacaq. Onun sözlərinə görə, sosial obyektlərin tikintisi prosesi davam etdirilir.

"Yaxın zamanda Şuşada 960 nəfərlik 1 saylı orta məktəb fəaliyyətə başlayacaq. 190 çarpayılıq mərkəzi xəstəxana artıq inşa olunmaqdadır. Gələn ilin birinci rübündə artıq istifadəyə veriləcək. Real məktəbi Şuşanın ən böyük abidəsidir. Həmin bina ilə bağlı unikal layihə həyata keçirilməkdədir", - deyə Aydın Kərimov vurğulayıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# İranda XİN rəhbərləri səviyyəsində 3+3 formatında görüş keçiriləcək

***Tezliklə İranda 3+3 formatında (Azərbaycan, Türkiyə, Rusiya, İran, Ermənistan, Gürcüstan) xarici işlər nazirləri səviyyəsində görüş keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə İran KİV-ləri yazıb. Ermənistanın baş naziri Nikol Paşinyan 3+3 görüşünün Tehranda keçirilməsinə razılıq verib. Bundan əvvəl İlham Əliyev də regional müşavirənin keçirilməsini alqışlamışdı.

Qeyd edək ki, 3+3 formatının təşəbbüskarı Azərbaycandır.

***Ağarza Elçinoğlu***

# Əli Əsədov türkiyəli nazir ilə görüşdü

***Oktyabrın 19-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının ailə və sosial xidmətlər naziri Mahinur Özdemir Göktaşla görüşüb.***



Nazirlər Kabinetindən "Unikal"a verilən məlumata görə, görüşdə iki ölkə arasında dostluq və qardaşlıq münasibətlərinin bir millət, iki dövlət prinsipinə uyğun olaraq bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu.

Ə.Əsədov Azərbaycanda sosial sahədə aparılan ardıcıl islahatlar, əhalinin rifah halının və sosial təminatının yaxşılaşdırılması, əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin artırılması istiqamətində görülən davamlı tədbirlər barədə məlumat verdi.

Bununla yanaşı əhalinin dövlət orqanlarının xidmətlərinə əlçatanlığının təmin edilməsi və vətəndaş məmnunluğunun artırılması prioritet istiqamətlər kimi dəyərləndirildi.

Türkiyəli nazirin Bakıda Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş Azərbaycan Qadınlarının 6-cı Qurultayında iştirakının əhəmiyyəti vurğulandı.

Diqqətə çatdırıldı ki, 25 il əvvəl Ulu Öndərin təşəbbüsü və iştirakı ilə keçirilən Azərbaycan Qadınlarının 1-ci Qurultayı müasir dövrdə ölkəmizdə qadın hərəkatının əsası qoymuşdur.

Vurğulandı ki, hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə qadınlara seçmək və seçilmək hüququ verən ilk dövlət olmuşdur. Azərbaycan dövlətinin bu gün qadın hüquqlarının təmin olunmasına xüsusi önəm verdiyi bildirildi. Ölkədə gender bərabərliyinin, qadınların sosial və ictimai həyatın bütün sahələrində bərabər iştirakının təmin edilməsinə yönəlmiş siyasətin aparıldığı bildirildi.

Eyni zamanda Azərbaycanda uşaq hüquqlarının təmin olunmasının da diqqət mərkəzində olduğu qeyd edildi. Ölkəmizdə uşaqların müdafiəsi üçün kompleks tədbirlər həyata keçirilir. Bu tədbirlərin bir istiqaməti də uşaq əməyinin istismarına qarşı mübarizəyə yönəlib. Ötən dövrdə ölkəmiz BMT-nin "Uşaq Hüquqları haqqında" Konvensiyası da daxil olmaqla bir sıra beynəlxalq sənədlərə qoşulub.

Həmçinin Azərbaycan ilə Türkiyə arasında ailə, qadın və uşaq problemləri sahəsində qarşılıqlı faydalı əməkdaşlığın mövcud olduğu vurğulandı. Bu baxımdan ötən ilin noyabr ayında İstanbulda Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında ailə, qadın və uşaq məsələləri üzrə Fəaliyyət Planının imzalanmasının önəmi qeyd olundu, ötən dövr ərzində Fəaliyyət Planının icrası çərçivəsində görülən işlər təqdir edildi.

Eyni zamanda dünən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Türkiyənin Ailə və Sosial Xidmətlər Nazirliyi arasında imzalanmış 2024-2025-ci illər üzrə Fəaliyyət Planının əhəmiyyətinə toxunuldu.

Görüş zamanı iki ölkə arasında qarşılıqlı maraq doğuran müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri müzakirə edildi.

# BMT TŞ zibil qutusuna atılmış bir qurumdur - TBMM sədri

***BMT Təhlükəsizlik Şurası (TŞ), demək olar, zibil qutusuna atılmış bir qurumdur.***



"Unikal" xəbər verir ki, bunu Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuş deyib.

O bildirib ki, bu təşkilat funksiyalarını yerinə yetirmir: "Bu gün "beynəlxalq hüquq", "müharibə cinayətləri" termini mənasını itirib. Bu gün BMT TŞ müharibələrə, ayrı-ayrı regionlardakı hərbi toqquşmalara tamamilə laqeyd yanaşır.

BMT hansı müharibəni dayandırıb? Rusiya ilə Ukrayna arasında davam edən savaşı dayandıra, müharibə cinayətlərinin qarşısını ala bildimi? Yox".

# "Bakı ilə İrəvan arasında münasibətlərin normallaşdırılması üçün yol xəritəsi hazırlanıb" - Paşinyan

***Ermənistanın baş naziri Nikol Paşinyan Avropa İttifaqının (Aİ) vasitəçiliyi əsasında Bakı ilə İrəvan arasında münasibətlərin normallaşdırılması üçün yol xəritəsi hazırlandığını açıqlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə o, Litvanın Baş naziri İnqrida Şimonite ilə birgə brifinq zamanı bildirib.

"Vurğulamaq istərdim ki, mənimlə Azərbaycan Prezidenti arasında Brüsseldə keçirilən görüşlər zamanı Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə münasibətlərin normallaşdırılması üçün yol xəritəsi hazırlanıb. Bu, Qranadada imzalanan dördtərəfli bəyanatda da öz əksini tapıb", - o deyib.

Ermənistan hökumətinin başçısı hesab edir ki, tərəflərin bu yol xəritəsinə sadiqliyi sülh prosesini sürətləndirəcək.



UNI-37_27 IYUI-QARA.qxd 10/19/2023 10:04 PM Page 6



# Prezident Qurultay iştirakçılarına müraciət ünvanladı

***Prezident İlham Əliyev Azərbaycan qadınlarının VI qurultayının iştirakçılarına müraciət ünvanlayıb.***

"Unikal" xəbər verir ki, müraciətdə deyilir:

"Hörmətli qurultay nümayəndələri! Əziz xanımlar!

Sizi Azərbaycan qadınlarının VI qurultayının açılışı münasibətilə salamlayır, hamınıza cansağlığı, xoşbəxtlik və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Qurultayın Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması dərin məna daşıyır. Ümummilli Lider qadınlarımızın ictimai-siyasi proseslərdə yaxından iştirak etmələrinə və dövlət qurumlarında geniş təmsil olunmalarına həmişə xüsusi diqqət yetirmişdir. Azərbaycan qadınlarının 25 il əvvəl Ulu Öndərin təşəbbüsü ilə keçirilən ilk qurultayı ölkəmizdə qadın hərəkatının keyfiyyətcə yeni mərhələsini başlatmışdır. Ötən müddətdə cəmiyyətdəki mövqeləri daha da möhkəmlənən qadınlarımız respublikanın sosial-iqtisadi və mədəni-elmi potensialının gücləndirilməsi işinə dəyərli töhfələr bəxş etmişlər. Onların təqdirəlayiq ictimai nüfuzu təməl prinsipləri Heydər Əliyev tərəfindən müəyyən edilmiş dövlət qadın siyasətinin ardıcıl gerçəkləşdirilməsinin nəticəsidir.



Qloballaşmanın vüsət aldığı və milli özünəməxsusluğu sürəkli dəyişikliklərə məruz qoyduğu bir vaxtda mədənimənəvi dəyərlərimizin qorunub saxlanılmasında və yaşadılmasında Azərbaycan qadınlarının xidmətləri misilsizdir. Məmnunluq hissi ilə bildirmək istəyirəm ki, onlar eyni zamanda maarifpərvər sələflərinin ənənələrini müvəffəqiyyətlə davam etdirərək, artan təşəbbüskarlıqları və doğun sosial-mədəni fəaliyyətləri ilə ictimai həyatımıza yeni güc qatır, müstəqillik salnaməmizə parlaq səhifələr yazırlar. Hər bir nailiyyətimizdə qadınların böyük zəhməti vardır. Fədakar analarımızın Vətən sevgisinin bariz nümunəsi dövlətimizin suverenliyi və ərazi bütövlüyünün bərpası naminə döyüş meydanındakı unudulmaz rəşadəti ilə xalqımızın mübarizlik ruhunu nümayiş etdirən milli əqidəli gənc nəsildir.

Azərbaycan öz tarixinin taleyüklü hadisələrlə zəngin, çox şərəfli bir dövrünü yaşayır. İşğaldan azad edilmiş ərazilərimizə Böyük Qayıdışla bağlı hazırda genişmiqyaslı müxtəlif layihələr icra olunmaqdadır. Vətənimizin rifahı üçün var qüvvələrini əsirgəməyən qadınlarımız bu nəhəng quruculuq işlərinin fəal iştirakçılarıdır.

Əminəm ki, qurultayınız aktual mövzulardakı ətraflı müzakirələri və dəyərli tövsiyələri ilə faydalı platforma rolunu oynayaraq, ölkəmizdə qadın hərəkatını milli prioritetlərdən irəli gələn vəzifələrin layiqincə həllinə istiqamətləndirəcəkdir".

# Azərbaycan və Özbəkistan müdafiə nazirləri sənəd imzaladılar




***Özbəkistan Respublikasının müdafiə naziri general-leytenant Baxodir Kurbanovun dəvəti ilə bu ölkəyə rəsmi səfər edən Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov oktyabrın 19-da "Bahouddin Nəxşbəndi" memorial kompleksində olub.***

Bu barədə "Unikal"a Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib. Komplekslə tanışlıqdan sonra general-polkovnik Z.Həsənov "Buxara" ümumqoşun poliqonuna gəlib.

Rəsmi qarşılanma mərasimi keçirilib. Müdafiə nazirləri fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin dövlət himni səsləndirilib.

Müdafiə nazirləri arasında əvvəlcə təkbətək, daha sonra isə nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.

Görüşdə Azərbaycan ilə Özbəkistan arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın inkişaf perspektivləri, hər iki ölkənin mütəxəssislərindən ibarət heyətin mütəmadi olaraq qarşılıqlı səfərlərinin təşkili və maraq doğuran bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Sonra poliqonun fəaliyyəti, maddi və tədris bazası ilə tanışlıq olub. Burada qonaqlara hərbi qulluqçuların nümunəvi məşğələləri nümayiş etdirilib.

Daha sonra qarşılıqlı hədiyyələr təqdim edilib və birgə xatirə şəkli çəkdirilib.

Yekunda "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Özbəkistan Respublikası Müdafiə Nazirliyi arasında 2024-cü il üçün ikitərəfli əməkdaşlıq Planı" imzalanıb.

# "Bütün məsələlərin bir sənədlə həllini tapması realistik yanaşma deyil" - Sabiq nazir

***Oktyabr ayının sonuna yaxın Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında görüş keçiriləcəyi gözlənilir. Diqqət çəkən məqamlardan biri odur ki, Paşinyan iki gün əvvəl Avropa Şurası Parlament Assambleyasındakı çıxışında Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin 2023-cü ilin sonunadək imzalana biləcəyini açıqlayıb.***

Görəsən, bu görüş sülh müqaviləsinin imzalanması üçün zəmin yaradacaqmı?

Mövzu ilə bağlı "Unikal"a açıqlama verən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov həmin görüşdə müzakirə oluna biləcək məsələlərdən danışıb: "Ümumiyyətlə, insanlarda belə bir steoratip var ki, əgər, belə bir sənədə qol çəkilsə, bütün məsələlər birdənbirə həll olunacaq. Təbii ki, bu belə deyil. Biz başa düşməliyik ki, iki ölkə arasındakı post-konflikt məsələləri həll etmək üçün tarixi bir dövr lazımdır. Kommunikasiyaların bərpası, sərhədlərin müəyyən olunması, kompensasiya məsələsi, delimitasiya prosesi və digər məsələlər var.



Əsas məsələlərdən biri də azərbaycanlıların Ermənistanda, ermənilərin isə Azərbaycanda yaşamaları, onların təhlükəsiziyinin qorunmasından ibarətdir.

Qeyd etdiyim bütün bu məsələlərin bir sənədlə həllini tapması realistik yanaşma deyil. Əslinə qalsa, məqsəd də bu deyil. Belə ki, sülh müqaviləsinə dair sənədin imzalanması gözlənilir. Həmin sənəddə mənim qeyd etdiyim məsələlərə dair əsas prinsiplər öz əksini tapacaq. Yəni, sülh müqaviləsinin əsas məqsədi münaqişəyə tam son qoymaqdır. Digər məsələlər isə sülh şəraitində həll olunmalıdır", - deyə o qeyd edib.

Tofiq Zülfüqarov həmçinin Zəngəzur dəhlizi ilə bağlı suala da cavab verib:

"Zəngəzur dəhlizi ilə bağlı digər bir məsələ də var. Bu, Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyən olunmasıdır. Daha sonra isə delimitasiya və demarkasiya prosesi reallaşmalıdır. Mövqelərin müxtəlif olduğu dövrdə, yəni, yanaşmalar o qədər fərqlidir ki, hazırda Zəngəzur dəhlizinin reallaşıb-reallaşmayacağını demək çox çətindir.

Mən danışıqlar vasitəsilə həmin torpaqların bizə aid olduğunun müəyyənləşəcəyini istisna etmirəm. Əgər, kommunikasiyalardan söhbət gedirsə, sərhədlər müəyyən olunana qədər digər bir dəhlizin yaradılması çox yaxşı bir addım olardı. Bununla da kommunikasiyaların işlək vəziyyətdə olması təmin edilə bilər".

***Murad İbrahimli***

# Ordumuzun polkovniki Türkiyənin Milli Müdafiə Universitetinə təyinat aldı



***Kadr mübadiləsi çərçivəsində Azərbaycan Milli Müdafiə Universitetinin prorektoru, polkovnik Rəşad Tahirov Türkiyənin Milli Müdafiə Universitetinə, MMU-nin prorektoru, professor doktor Tələt Canbolat isə bir il müddətinə Azərbaycan Milli Müdafiə Universitetinə təyinat alıblar.***

"Unikal"ın xəbərinə görə, bu barədə Türkiyə Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Qeyd edilib ki, "Türkiyə Cümhuriyyətinin 100 illiyi" və "Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 100 illiyi" münasibətilə 2023-cü il üçün iki xüsusi təlim nəzərdə tutulub.

Bildirilib ki, bu çərçivədə birincisi Türkiyədə 19 aprel-10 may tarixlərində keçirilib, ikincisi isə 16-25 oktyabr tarixlərində Azərbaycanda keçiriləcək.

# Dini təhsili olmayanlar məscidlərdən uzaqlaşdırılır

***Əvvəllər kadr çatışmazlığından irəli gələrək, məscidlərdə çalışan din xadimlərinin əksəriyyətinin dini təhsili olmayıb.***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib.

O qeyd edib ki, din xadimlərinin təyinatı komitə tərəfindən həyata keçirilir. "Eyni zamanda, həmin şəxslərlə bağlı məlumatlar Qafqaz Müsəlmaları İdarəsinə ötürülür. Ali və orta dini təhsili olan şəslərin təyinatı aparılır. Əvvəllər kadr çatışmazlığından irəli gələrək məscidlərdə çalışanların əksəriyyətinin dini təhsili olmayıb. Hazırda dini təhsili olmayan şəxslərin əvəz olunması prosesi gedir. Yenilənmiş kadrların sayı 200-ə yaxınlaşmaqdadır".

M.Qurbanlı əlavə edib ki, məscidlərə dini ayinləri yerimə yetirmək üçün qadınlar da təyin edilir.



## Nazir sosial şəbəkələrdən istifadə edən hərbçiləri işdən çıxardı

***Azərbaycan Ordusunda informasiya təhlükəsizliyi, eləcə də məxfilik qaydaları ilə bağlı mütəmadi olaraq şəxsi heyətlə maarifləndirici söhbətlər aparılır, iltizamnamələrə imza atılaraq bununla bağlı öhdəçilik götürürlər. Buna baxmayaraq bir neçə hərbi qulluqçunun xidmət zamanı smartfon tipli telefon istifadə etməsi, eləcə də şəxsi hesablarında xidmətə aid foto-video görüntüləri paylaşması aşkar edilmişdir.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, bu hərbi qulluqçulardan bəziləri Müdafiə Nazirliyi rəhbərliyinin müvafiq əmr və sərəncamlarına zidd hərəkətlərinə görə ordu sıralarından xaric edilib, digərləri barəsində isə ciddi intizam tədbirləri görülüb.

Ordu mənsublarına yaraşmayan hərəkətlərlə hərbi etika qaydalarını, eləcə də mobil telefonlardan istifadə zamanı nizamnamələrin tələblərini və müvafiq əmrləri kobud şəkildə pozan hərbi qulluqçular barəsində bundan sonra da ciddi tədbirlər görüləcəkdir.

Əlavə olaraq qeyd edək ki, qaydaların daha da sərtləşdirilməsi ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üçün aidiyyəti üzrə yeni təkliflər hazırlanaraq təqdim edilib.

## Birinci Qarabağ müharibəsində itkin düşənlərdən 267 nəfəri qadındır

***"Birinci Qarabağ müharibəsi nəticəsində qaçqın və məcburi köçkün düşmüş bir milyona yaxın soydaşımızın 52 faizini qadınlar təşkil edib. Müharibə dövründə itkin düşmüş 4 minə yaxın soydaşımızdan 267 nəfəri qadındır".***



"Unikal" xəbər verir ki, bunu Azərbaycan Qadınlarının VI Qurultayının açılış mərasimində ombudsman Səbinə Əliyeva deyib. O bildirib ki, qadınlar müharibədə ağır işgəncələrə məruz qalıb:

"Bu bir həqiqətdir ki, baş verən bütün silahlı münaqişələr, müharibələr, təbii fəlakətlər zamanı ən böyük çətinlik məhz həssas təbəqələr kimi qadın və uşaqların üzərinə düşür. Bu mənada həm Birinci və İkinci Qarabağ müharibələri illərində, həm 30 illik işğal dövründə, hazırda isə azad olunmuş ərazilərimizdə aparılan geniş bərpa-quruculuq prosesində Azərbaycan qadınları öz missiyasını layiqincə yerinə yetiriblər və yetirirlər".

# "Bu gün istənilən danışıqlar prosesində Azərbaycan diqtə edən tərəfdir"

## Arzu Nağıyev: "Ermənistanda nə qədər revanş sevdalı şəxslər olsa da, onların elə güclü ordusu yoxdur ki, hansısa revanş etsinlər"

***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, deputat Arzu Nağıyev "Unikal"a müsahibə verib. O, Azərbaycan-Türkiyə birgə taktiki təlimlərinin əhəmiyyətindən, bu təlimlərdə iştirak edəcək zirehli texnikaların üzərində nida işarəsinin çəkilməsindən, Fransanın Ermənistana silah yardımı etməsindən və başqa məsələlərdən danışıb.***

***-Arzu müəllim, hazırda Azərbaycan-Türkiyə birgə taktiki təliminə hazırlıq məşqləri keçirilir. İki qardaş ölkənin birgə təlimi 23-25 oktyabr tarixlərində olacaq. Bu təlimlərn əhəmiyyətini necə qiymətləndirirsiz və bu təlimlər əvvəlkilərdən nə ilə fərqlənəcək?***

-23-25 oktyabr tarixlərində Azərbaycanda keçiriləcək birgə taktiki təlimlər Türkiyə Respublikasının yaradılmasının 100-cü ildönümünə həsr olunub. NATO standartlarına uyğun olan və ən döyüşkən Türkiyə ordusu ilə keçirəcəyimiz təlimlər çox mühüm əhəmiyyət kəsb edir. Təlimlərin indiki zamanda olması müsbət dəyərləndirilməlidir. Burada iki ölkənin silahlı qüvvələrinin bir qrup hərbi qulluqçusu, aviasiya vasitələri iştirak edəcək. Birgə taktiki təlimin Bakı şəhəri, Naxçıvan Muxtar Respublikası və azad edilmiş ərazilərimiz də daxil olmaqla bir neçə istiqamətdə keçirilməsi planlaşdırılır. Hər bir təlimdən əvvəl müvafiq plan olur. Bu plana uyğun olaraq harada dislokasiya yerləri varsa, ordu birləşmələri həmin təlim-toplanış yerinə gələcək. Quru Qoşunları, həmçinin Raket və Artilleriya Qoşunlarının bölmələri atəş mövqelərini tutacaqlar. Döyüş tətbiqində necə istifadə olunursa, həmin tapşırıqları yerinə yetirəcəklər. Burada həm təcrübə mübadiləsi, həm də şəxsi heyətin peşəkarlığının artırılması mühüm əhəmiyyət kəsb edir. İşğaldan azad olunmuş ərazilərdə və strateji əhəmiyyətli rayonlarda təlimlərin keçirilməsi mütləqdir. Naxçıvan Muxtar Respublikası strateji əhəmiyyətli ərazimizdir. Bunlar hamısı Ordumuzun möhkəmlənməsi və döyüş qabiliyyətinin artırılmasına yönəldilib. Bu təlimin digərlərindən fərqi ondan ibarətdir ki, suveren Azərbaycanın ərazisində, terrorçuların və hər hansı silahlı birləşmələrin olmadığı ərazilərdə olacaq. Qürur duyuruq ki, məhz qardaş Türkiyə ilə birgə azad olunmuş ərazilərdə təlimlər keçirilir.

***-Hərbi təlimlərdə iştirak edəcək Azərbaycan zirehli texnikaları üzərindəki nida işarəsi (!)diqqət çəkib. Bunun ölkə liderinin bir müddət əvvəl səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" sözünün qüvvəti olduğunu yəqin etmək olar. Sizcə, düşmənlərimiz bundan hansı nəticə çıxarmalıdır?***

-Bu, çox maraqlı məsələdir. Məlum olduğu kimi, Prezident İlham Əliyevin bir dəfə işlətdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" sözü əsas meqamlardan biridir. Biz bu nida ilə dünyaya sübut etdik ki, sözümüz və imzamız üst-üstə düşür. Bu baxımdan, təlimlərdə iştirak edəcək zirehli texnikaların üzərində də nida işarəsi var. Bu işarə həm də birgə təlimlərdə qardaşlıq simvolu kimi qiymətləndirilə bilər. Düşmən də bundan ciddi nəticə çıxarmalı və sözümüzün, imzamızın eyni olduğunu dərk etməlidir.

***-Siz də qeyd etdiniz ki, düşmən bu təlimlərdən nəticə çıxarmalıdır. Ermənistanda hələ də revanşist xəyallarla yaşayanlar var. Bundan sonra Ermənistanda revanş sevdasına düşən şəxsləri nələr gözləyir?***

-Ermənistanda nə qədər revanş sevdalı şəxslər olsa da, onların elə güclü ordusu yoxdur ki, hansısa revanş etsinlər. Əsas məqam ondan ibarətdir ki, onların ordusunun silah və texnikaları bərbad vəziyyətdədir. Heç inandırıcı görünmür ki, Paşinyan hakimiyyəti revanş üçün hansısa addımlar atmağa cəhd etsin. Buna baxmayaraq, orada müəyyən qüvvələr var. Vaxtilə işğal olunmuş ərazilərimizdə səhra komandirləri olub sonradan Ermənistanda vəzifə tutmuş Koçaryanlar, Sarkisyanlar və digərləri çalışır ki, hansısa bir addım atmaqla nüfuz sahibinə çevrilsinlər. Öz vətəndaşlarına göstərmək istəyirlər ki, guya nə isə cəhd edirlər. Bu da mümkün olan məsələ deyil. Onlar çox yaxşı bilir ki, "dəmir yumruq" və rəşadətli Azərbaycan Ordusu yerindədir. Hər hansı bir addım atacaq şəxs bu gün cinayət məsuliyyətinə cəlb olunmuş "rəhbərlər"in aqibətini yaşayacaq.

***-Bu günlərdə Fransanın müdafiə naziri bildirib ki, Ermənistana müdafiə silahlarının verilməsi onların gündəliyinə daxildir. Oktyabrın əvvəlində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə telefon danışığı zamanı qeyd edib ki,Fransanın Ermənistana silah verməsi sülhə deyil, yeni qarşıdurmaya xidmət edən yanaşmadır və əgər regionda hər hansı yeni qarşıdurma baş verərsə, bunun səbəbkarı məhz Fransa olacaq. Əgər Fransa regionda sülhün tərəfdarıdırsa, Ermənistanı niyə silahlandırır?***

-Fransa ciddi cəhdlə regionda nüfuzunu saxlamağa çalışır. Ermənistanda müstəmləkə siyasətini həyata keçirməklə bu ölkədən istifadə etmək istəyir. Ona görə ki, 30 illik işğal dövründə ərazilərimizdən iqtisadi gəlirlər götürüblər, qanunsuz işlərlə məşğul olublar. Bu baxımdan, onlar yenidən regiona qayıtmağa çalışırlar. Cənab Prezident Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişellə telefon danışığı zamanı Fransanın Ermənistana silah verməsi məsələsini pisləyib. Bu, sülhə deyil, yeni qarşıdurmaya gətirib çıxara bilər və ona xidmət edən yanlış addımdır. Onlar əvvəllər müşahidəçi adı altında vizual kəşfiyyatçıları regiona gətirərək qarşıdurma yaratmağa çalışırdılar. İndi də silah verməklə regionda öz varlıqlarını sübut etmək istəyirlər. Məlum məsələdir ki, Fransa regionda sülhün tərəfdarı deyil. Ermənistanı ona görə silahlandırır ki, Rusiyanın nüfuzunu azaltsın və sülh carçısı kimi buralarda olsun.

***-Bir müddət əvvəl dövlət başçısı Azərbaycanın 8 kəndinin hələ də Ermənistanın işğalı altında olduğunu deyib və bu kəndlərin azad olunmasının vacibliyini vurğulayıb. Ermənistan bu kəndləri sülh yolu ilə qaytarmasa, orada da antiterror tədbirləri keçirilə bilərmi?***

-Ermənistan bəyanat verib ki, Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Lakin 7 kəndimiz Qazax, bir kəndimiz isə Naxçıvan tərəfdən olmaqla hələ də işğal altındadır. Bu kəndlərin qaytarılması vacibdir. Əgər Ermənistan sülh yolu ilə həmin kəndləri qaytarmaq istəməsə, təbii ki, bunun digər yolları da var. Bu kəndlərin azad olunması vacib məsələdir. Həmin kəndlərdən kommunukasiyaların keçirilməsi nəzərdə tutulur. Mütləq bu ərazilər qaytarılmalıdır. Düşünürəm ki, bu məsələ də çox uzun çəkməyəcək və öz həllini tapacaq. Ona görə ki, bu gün istənilən danışıqlar prosesində Azərbaycan diqtə edən tərəfdir. Azərbaycanın diqtəsi ilə sülh müqaviləsinin imzalanmasına aparacaq addımlardan biri də məhz bu kəndlərin qaytarılmasıdır.



***Anar Kəlbiyev***

# AZAL-da Cahangir Əsgərovun "məntiqi" hələ də işləyir

## Uçuş qiymətlərinin baha olaraq qalması ilə bağlı gətirilən arqumentlər nə qədər ağlabatandır?

***Bu il sentyabrın 1-də "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) prezidenti Cahangir Əsgərov vəzifəsindən azad edildi. Bundan sonra əhali arasında aviabiletlərin qiymətlərində ucuzlaşma olacağına dair ümidlər, gözləntilər yarandı. Hətta sosial şəbəkələrdə ən geci oktyabrın əvvəllərindən qiymətlərin endiriləcəyinə dair məlumatlar dolaşmağa başlamışdı.***

Lakin aradan ayyarımdan çox keçməsinə baxmayaraq aviabiletlərin qiymətlərinin bahalılığı cəmiyyətdə müzakirə olunan məsələlərdən biri olaraq qalır. Vətəndaşlar həmin qiymətlərin qonşu ölkələrlə müqayisədə yüksəkliyindən narazılıqlarını bildirməyə davam edirlər. Məlumdur ki, koronavirus pandemiyası səbəbilə Azərbaycandan xarici ölkələrə yalnız hava yolu vasitəsilə səfər mümkündür. 2020-ci ilin mart ayından insanlar ancaq hava yolundan istifadə edərək səfərlərini həyata keçirirlər. Bu isə onların şəxsi büdcələrinə ciddi şəkildə zərərdir. Ona görə də sosial şəbəkələrdə vətəndaşlar ən azından qonşu ölkələr üçün təklif edilən biletlərin qiymətində endirimlərin olmasına çağırış edirlər. Bir sözlə, Cahangir Əsgərovun vəzifəsindən azad edilməsi ilə birgə yaranan qiymət dəyişikliyi ümidi özünü doğrultmayıb. Bəs bunun səbəbi nədir? Hamını düşündürən yuxarıdakı suala Milli Məclisin İqtisadi siyasət sənaye və sahibkarlıq komitəsinin iclasında "Aviasiya haqqında" yeni qanun layihəsinin müzakirəsi zamanı rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümbətov müəyyən qədər aydınlıq gətirib. O təsdiqləyib ki, hamını maraqlandıran AZAL-da qiymət məsələsidir. Sonra da əlavə edib ki, aviasiya sahəsində qiymətlər dəyişkəndir, hətta eyni gündə, eyni yerə olan uçuşlarda, eyni sinifdə bəzi qiymətlər iki dəfəyə yaxın dəyişir. Ölçü vahidi olaraq aviasiya sahəsində bir kreslonun uçuş qiyməti mil olaraq nəzərə alınır: "Qiymətlərə təsir edən birinci amil yanacaq məsələsidir. Vaxtilə AZAL-a yanacaq qiymətində güzəşt edilirdisə, indi yanacaq dünya qiyməti ilə alınır, AZAL-a heç bir güzəşt yoxdur. Qiymətlərə təsir edən digər amil təyyarənin alınması və saxlanması xərcləridir. Bundan başqa, işçilər, pilot, xidmət də qiymətlərə təsir edir. Kabin hazırlığı ciddi standartlarla müəyyən olunur", - deyə nazir müavini vurğulayıb.



Xatırladaq ki, Rəhman Hümmətov eyni zamanda "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının üzvüdür. Şuraya nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyevin sədrlik etdiyini də vurğulayaq.

Bəs AZAL-ın aviabilet qiymətlərinin bahalılığına səbəb olaraq göstərdiyi arqumentlər nə qədər ağlabatandır? Öncədən onu deyək ki, sadalanan arqumentlər bu dövlət şirkətində hələ də Cahangir Əsgərovun dövrünə xas məntiqin işlədiyini ortaya qoyur. Belə ki, Əsgərovun zamanında da qiymətlərin "kəllə-çarxa çıxması" eyni "arqumentlərlə" izah olunurdu. İndi isə gələk deyilənlərin inandırıcılıq dərəcəsinə...

AZAL rəsmiləri illərdən bəridir uçuş qiymətlərindəki bahalılığı yanacaq amili ilə əsaslandırmağa çalışırlar. Lakin nə dünən, nə də bu gün aydınlıq gətirilmir ki, bu qurum yanacağı niyə qonşu ölkələrlə müqayisədə baha alır? Yox, eyni qiymətə alırsa, nə üçün Bakıdan havaya qalxan təyyarə ilə, məsələn, Tiflisdən eyni istiqamətdə, eyni məsafədə uçan təyyarənin uçuş bileti arasında bu qədər kəskin, bəli, kəskin, bəzən bir neçə dəfə fərq yaranır? Axı hətta millət vəkilləri belə bu qədər anormal fərqin heç bir normal məntiqlə izah edə bilməyəcəyini dəfələrlə dilə gətiriblər. Elə isə AZAL bəhanə, yaxud "arqument" istehsal etməkdənsə artıq ağlabatan izahata keçsə yaxşı olmazmı?

Digər "səbəb": təyyarələrin alınması və saxlanılması xərcləri... Bu da təəccüb doğurur, çünki ağıla ilk o gəlir ki, qonşu ölkələr nə yeni təyyarə alır, nə də onların saxlanılmasına pul xərcləyirlər. Digər tərəfdən, AZAL-ın təyyarələri dövlət büdcəsi hesabına alındığı halda qiymətlərin bahalılığına don geyindirməkdən ötrü belə bir "arqument" irəli sürmək nə qədər ədalətli, nə qədər məntiqlidir?

Unudanlar varsa xatırladaq: ölkə başçısı hələ 2020-ci ilin avqustunda hökumətin müşavirəsi zamanı demişdi: "AZAL-ın bütün təyyarələri dövlət tərəfindən alınıbdır. Bütün aeroportlar dövlət tərəfindən tikilibdir. Bəs, bunun dövlətə verdiyi mənfəət, gəlir nədir? Bu təyyarələr alınır, onlar istismar edilir. Bəs, bunun gəliri haradadır?"

Daha bir məqamı xatırladaq. Dövlət rəhbəri hələ 8 il öncə, 2015-ci ilin iyulunda da Nazirlər Kabinetinin iclasında AZAL-da biletlərin qiymətlərinin bahalığı məsələsinə toxunmuş və bildirmişdi ki, biletlərin qiyməti həddən artıq yüksəkdir, bu məsələ tez bir zamanda nizama salınmalıdır. Lakin "Azərbaycan Hava Yolları"nda istər Cahangir Əsgərovun zamanında, istərsə ondan sonra eyni məntiq hökm sürür: millət vəkillərindən sadə vətəndaşlaradək hər kəsdə narazılıq, giley-güzar doğuran qiymətləri aşağı salmaqdansa, bu bahalığa qəribə, ağlabatan olmayan "arqumentlərlə" haqq qazandırılmağa çalışılır. Həmin "məntiqin", daha doğrusu, məntiqsizliyin nə qədər işləyəcəyini isə yaşayıb görəcəyik...

*Sənan Mirzə*

# Terrorçu rejim Azərbaycanda mülki aviasiyaya belə radiomaneələr edib - DTX



***Məlum olduğu kimi, Azərbaycan Respublikasının Qarabağ bölgəsində fəaliyyət göstərmiş qanunsuz erməni silahlı birləşmələri tərəfindən ölkənin hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinə və xarici aviaşirkətlərə məxsus mülki hava gəmilərinin naviqasiya sistemlərinə qarşı radiomaneələr tətbiq edilib və bu barədə dəfələrlə beynəlxalq ictimaiyyətə məlumatlar verilib.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) məlumat yayıb.

"2021-2023-cü illər ərzində belə radiomaneələrin tətbiqinin intensivləşməsi həmin ərazilərin yaxınlığında yerləşən radar stansiyalarına qlobal naviqasiya peyk sistemlərindən siqnalların daxil olmasında fasilələrin yaranması, siqnallara qarşı maneələrin törədilməsi, habelə Qarabağ bölgəsi ətrafında uçan mülki hava gəmilərində naviqasiya siqnallarının itməsi ilə müşayiət olunub və bununla da mülki təyyarələrin idarə edilməsinin müvəqqəti itirilməsinə və aviasiya qəzalarına səbəb ola biləcək çoxsaylı cinayət faktları qeydə alınıb.

Azərbaycanın Qarabağ bölgəsində qanunsuz erməni silahlı birləşmələrinin törətdikləri terrorçuluq və digər cinayətlərin araşdırılması ilə bağlı Dövlət Təhlükəsizliyi Xidmətində davam edən cinayət işinin istintaqı zamanı, lokal xarakterli antiterror tədbirləri nəticəsində tərksilah edilmiş sözügedən silahlı birləşmələrin sərəncamında olmuş digər xüsusi texniki vasitələrlə yanaşı, xaricdə istehsal olunan "Role-21M", həmçinin yük avtomobillərinin bazası üzərində qurulan "Repellent-1" tipli və kustar üsulla quraşdırılmış radioelektron mübarizə komplekslərı də aşkar edilmişdir. Taktiki-texniki göstəricilərinə əsasən, "Pole-21M" kompleksinin 150 km-dək məsafədə yerləşən obyektlərə "GPS", "QLONASS", "Galileo", "BeiDou" və sair tipli peyk naviqasiyası sistemlərindən daxil olan siqnalların məhdudlaşdırılması və radiomaneələrin yaradılması üçün istifadə edildiyi müəyyən olunub.

"Repellent-1" kompleksindən havada olan obyektlərin radiorabitə vasitələrinin idarəetmə və məlumat ötürmə kanallarının siqnallarının 35 km-dək məsafədə aşkarlanaraq fəzada yerinin, istiqamətinin, sürətinin təyin edilməklə izlənilməsi, idarəetmə və naviqasiya sistemlərinin işinə radiomaneə yaradılması, eləcə də kustar üsulla quraşdırılmış radioelektron mübarizə komplekslərindən obyektlərə "GPS" və "QLONASS" naviqasiya peyklərindən daxil olan siqnalların məhdudlaşdırılması və radiomaneələrin yaradılması istiqamətində istifadə olunduğu təsbit edilib. Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam edir", - rəsmi məlumatda vurğulanıb.

# Beynəlxalq axtarışda olan iki nəfər ölkəmizə ekstradisiya edildi



***Baş prokurorluğun vəsatəti əsasında Ukrayna Baş Prokurorunun Ofisi tərəfindən "Ekstradisiya haqqında" 13.12.1957-ci il tarixli Avropa Konvensiyasının tələblərinə uyğun olaraq Azərbaycan Respublikası vətəndaşı Fuad Kərimovun ekstradisiyası haqqında qərar qəbul olunub.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsində istintaq edilən cinayət işi üzrə Fuad Kərimovun xüsusilə külli miqdarda ziyan vurmaqla törədilən mənimsəmə və vəzifə saxtakarlığı cinayətlərini törətməsinə əsaslı şübhələr müəyyən edildiyindən, barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilməklə beynəlxalq axtarışa verilib.

Fuad Kərimov Ukraynanın ərazisində saxlanılaraq oktyabrın 19-da Ədliyyə Nazirliyi Penitensiar Xidmətin xüsusi konvoyunun müşayiətilə ölkəmizə gətirilib.

UNI-37_27 IYUI-QARA.qxd 10/19/2023 10:04 PM Page 9





# Deputatlar AXCP və Müsavata etiraz edir

***Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyev oktyabrın 15-də antiterror tədbirləri ilə azad edilən Xankəndidə səfərdə olub. Prezident burada dövlət bayrağını ucaldıb.***

Bu hadisədən sonra Azərbaycanın 23 partiyası birgə Prezidentə müraciət edərək, onu təbrik ediblər. Ancaq partiyaların birgə müraciətinə Azərbaycan Xalq Cəbhəsi və Müsavat Partiyaları qoşulmayıb.

Məsələ ilə bağlı Modern.az-a danışan Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa belə partiyaların gələcəkdəki proseslərdə özlərini göstərə bilməyəcəyini deyib: "Ümumiyyətlə, bir neçə praktikada təsdiqini tapdı ki, siyasi korafəhmlik göstərən qruplar artıq siyasətdə hər hansı söz sahibi olmaq imkanını itirirlər. Bu gün məsələlərdə standart mexaniki bir davranışı vərdiş olaraq təkrarlamaq onlara heç bir halda nüfuz və ya divident gətirmir. Yəni bu siyasi savadsızlığın nümunəsidir. Bütün xalqın vahid şəkildə Qarabağın azad olunması, bayrağımızın Xankəndidə ucaldılması məsələsini ciddi milli birlik havasında qeyd etdiyi bir zamanda hansısa siyasətçi özünü bundan ayırmaq istəyirsə, özünü bunun iştirakçısı olaraq görmürsə, o, ümumiyyətlə gələcəkdəki siyasi proseslərdə özünü görməyəcək. Çünki proses ona doğru gedir. Gələcəyimizin qurulmasına yönəlik "mən hamıyla bir yerdə deyiləm, ayrıca cığırla gedirəm" deyənlərin əksəriyyəti ana yola gəlib çıxa bilməyəcək. Həmən partiyaların məsələyə yanaşmasını da bu cür qiymətləndirə bilərik".

Milli Məclisin deputatı Hikmət Babaoğlu vurğulayıb ki, bu gün Azərbaycan xalqı öz dövlətçilik tarixinin çox əlamətdar hadisəsini yaşamaqdadır: "Çünki son yüz ildə ilk dəfədir ki, Azərbaycan dövləti öz konstitusion quruluşunu hər qarış ərazisində bərpa edib. Xankəndidə bayrağının dalğalandırılmasına nail olub. Bu qüruru, sevinci və zəfəri təmin edən liderlə həmrəylik nümayiş etdirməyən siyasi partiyalar,deməli, Azərbaycan xalqının yanında deyillər. Azərbaycan xalqının ümumilli zəfərinə, sevincinə qoşulmaq istəmirlər. Belə olan halda əslində onlar özlərini Azərbaycandakı siyasi sistemdən və siyasi proseslərdən təcrid etmiş olurlar. Bu xalqla ortaq sevinci bölüşməyən heç bir siyasi partiya yaşaya bilməz. Xalqımız dövlətçilik şüuruna malikdir. Xalqımız bunu öz yadında saxlayır və seçki prosesində də belə davranan siyasi partiyaları cəzalandırır və cəzalandıracaq".

H.Babaoğlu bu siyasi partiyaların yeni siyasi mühitə adaptasiya olmalı olduğunu qeyd edib: "Müasir dövrdə siyasi sistemimizdə yeni keyfiyyət dəyişiklikləri baş verir. Dövlətçilik tariximizdə yeni mərhələyə keçirik. Ərazi bütövlüyümüzün tam və qəti şəkildə bərpa olunması mərhələsindəyik. Bu prosesdə həmən partiyalar Azərbaycan siyasi sisteminin inkişafı qarşısında tormozlayıcı rol oynayırlar. Bu isə indiki tarixi şəraitdə bizə lazım deyil. Həmin partiyaların liderləri ya yeni tələblərə adaptasiya olmalıdırlar, ya da siyasi sistemi tərk etməlidirlər. Bu, siyasi sistemimizin inkişafının yolunu açmaq baxımından vacibdir".

# Sabiq nazir müavininin başı böyük dərddə

## Gənclər və İdman Nazirliyində aşkarlanan "tikinti korrupsiyası" İsmayıl İsmayılova baha başa gələ bilər?

***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, Gənclər və İdman Nazirliyində tikinti layihəsində pozuntular aşkarlanıb, materiallar prokurorluğa göndərilib.***

Bu məlumat Hesablama Palatasının "Gənclər və İdman Nazirliyinə bəzi tikinti layihələri üzrə ayrılan dövlət investisiyalarının auditi" üzrə aparılmış kənar dövlət maliyyə nəzarəti tədbirinin nəticələrinə dair məlumatında əksini tapıb. Bildirilib ki, Gənclər və İdman Nazirliyinə bəzi tikinti layihələri üzrə ayrılan dövlət investisiyalarının auditi zamanı Goranboy Olimpiya İdman Kompleksinin tikintisi üzrə dövlət büdcəsindən ayrılan vəsaitin istifadə və idarə olunması sahəsində aşkar edilmiş hüquqpozmalarda cinayət tərkibinin əlamətlərinin ehtimal olunmasını nəzərə alaraq auditin nəticələrinə dair müvafiq materiallar Baş Prokurorluğa göndəriləcək.



Qeyd edilib ki, auditlə əhatə olunan dövrdə Nazirlik və Gənclər və İdman Nazirliyinin Tikilməkdə olan Obyektləri (TOM) tərəfindən qurumdaxili dövlət investisiya siyasətinin həyata keçirilməsi və investisiya layihələrinin icrasına nəzarət, həmçinin bu layihələrin maliyyələşdirilməsi qeyri-qənaətbəxş səviyyədə təşkil olunmuş və bir sıra hallarda qanunsuz xərclərə yol verilib. Belə ki, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramında nəzərdə tutulan tədbirlər qismən və ya tam icra edilməmiş, investisiya xərcləri üzrə vəsaitin vaxtında və müəyyən edilən məbləğdə ayrılması üçün tədbirlər görülməyib, bu səbəbdən layihələrin icrasını başa çatdırmaq üçün 161,5 mln. manat məbləğində vəsaitin istifadəsi təmin edilməyib. Tikinti norma və qaydalarının tələbləri pozularaq smeta sənədlərində və yerinə yetirilən işlərin qəbul aktlarında işçi layihə ilə müqayisədə kənarlaşmalara yol verilib, "Neftçala rayonunun Olimpiya İdman Kompleksinin tikintisi" obyekti üzrə smeta sənədlərində və yerinə yetirilmiş işlərin qəbulu aktlarında iş həcmlərinin layihədə nəzərdə tutulandan çox göstərilməsi nəticəsində 3 halda podratçıya 27,9 min manat, 7 halda yerinə yetirilməyən işlərə görə 221,0 min manat və 18 adda idman və mebel avadanlıqlarının mövcud olmamasına görə 38,8 min manat, cəmi 287,7 min manat məbləğində büdcə vəsaiti podratçıya artıq ödənilib.

"Goranboy rayonunda Olimpiya İdman Kompleksinin tikintisi" obyekti üzrə smeta sənədlərində və işlərin qəbulu aktlarında iş həcmlərinin layihəyə nisbətən çox göstərilməsi nəticəsində 6 halda 135,2 min manat və 80 halda yerinə yetirilməyən işlərə və mövcud olmayan mebel avadanlıqlarına görə 379,6 min manat, 1 halda yerinə yetirilmiş iş həcmlərinə bazisəmsal üsulu tətbiq edilməklə hesablanmış işin dəyəri üzrə yaranan kənarlaşmaya görə 457,6 min manat, cəmi 972,4 min manat məbləğində büdcə vəsaiti podratçıya artıq ödənilib. Satınalma müqaviləsinin şərtlərinə, həmçinin öhdəliklərin icrasına düzgün əməl edilməyərək 2 obyekt üzrə 5% miqdarında və ya 1379,9 min manat məbləğində keyfiyyət zəmanəti vaxtından əvvəl podratçılara ödənilib, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə, satınalma müqavilələrinin şərtlərinə və müvafiq satınalma prosedurlarına düzgün əməl olunmayıb, 1 halda bank təminatının müddətində uyğunsuzluq olan iddiaçı prosedurdan kənarlaşdırılmaq əvəzinə qalib elan edilib, 6 halda ehtimal olunan qiymətdən yüksək qiymət təklif edən iddiaçıların adı yekun protokolda göstərilməyib və s.

"Unikal"ın mövzu ilə bağlı araşdırması zamanı aydınlaşıb ki, Hesablama Palatasının tikitisində ciddi nöqsanlar aşkarlanan Goranboy Olimpiya İdman Kompleksinin inşasına 2014-cü ildə başlanılıb. İnşa prosesi uzun illər sürüb və kompleksin açılışı yalnız 2021-ci ildə mümkün olub.

Neftçala Olimpiya İdman Kompleksinin tikintisinə isə 2013-cü ildə start verilib və burada da inşaat işləri təxminən 7 il davam edib. Belə ki, kompleksin açılışı 2021-ci ildə baş tutub.

O da maraqlıdır ki, tikintisi mərhum gənclər və idman naziri Azad Rəhimovun vaxtında başlayan hər iki kompleksin açılışı onun sağlığında gerçəkləşməyib. Belə ki, Rəhimov 2021-ci ilin aprelin 30-da vəfat edib.

Haqqında danışılan iki olimpiya idman komplekslərinin inşası isə gənclər və idman nazirinin sabiq müavini İsmayıl İsmayılovun kurasiyasında olub. O, 2021-ci ilin noyabrında tutduğu vəzifədən azad edilib.

Ölkə mediası İsmayıl İsmayılovun böyük biznes şəbəkəsinə malik olduğunu, həmin biznes şəbəkəsinin isə oğlu Elvin İsmayılov tərəfindən idarə edildiyini yazıb. Sabiq müavinin biznesində tikintinin xüsusi yer tutması da diqqət çəkir.

O da bildirilib ki, İsmayılovun qurduğu ailə biznesində Gənclər və İdman Nazirliyinin xətti ilə Bakıda və bölgələrdə inşa edilən gənclər evlərinin, olimpiya idman komplekslərinin və s. inşası zamanı yol verilən ciddi korrupsiya halları nəticəsində əldə edilən vəsaitlərin böyük payı var. Öz növbəsində isə İ.İsmayılov nə biznesi barədə iddialara, nə də biznesinin maliyyə qaynaqları barədə suallara indiyədək cavab verməyib.

Bəzi məlumatlara görə, həm Neftçala, həm də Goranboy olimpiya idman komplekslərinin tikintisi zamanı yol verilən ciddi maliyyə pozuntuları keçmiş nazir müavininin də başını ağrıda bilər. Çünki onun bu qədər genişmiqyaslı pozuntulardan xəbərsiz olması ağlabatan görünmür.

Onu da deyək ki, İ.İsmayılov vəzifədən azad edilərkən də onun barəsində çoxsaylı yeyinti şübhələrinin olduğu gündəmə gətirilmişdi.

***Toğrul Əliyev***

# Keçmiş icra başçısı ilə bağlı müəmma...

## Arif Qasımovu milyonlarla manatlıq vergi borcu olan şirkətlə nə bağlayır?



***Ötən həftə yerli mətbuat İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı Şəhər Lokal Gəlirlər Baş İdarəsinin tanınmış şirkəti - "Park City" MMC-ni məhkəməyə verdiyi barədə məlumat yayıldı. Məlumatda bildirilirdi ki, məhkəmə çəkişməsi vergi məsələləri ilə bağlıdır.***

Qeyd olunurdu ki, iş hazırda apellyasiya mərhələsindədir və şikayətçi "Park City" MMC-dir.

Şirkətin şikayətinə hakim Kamran Əkbərovun sədrliyi ilə baxılacağı da deyilirdi. O da vurğulanırdı ki, "Park City" MMC-nin bu günə olan vergi borcu 2 780 034,39 AZN-dir.

Xatırladaq ki, adıçəkilən şirkət bir müddətdir mediada qalmaqallı xəbərlərlə gündəmə gəlir. Belə ki, bir müddət öncə Nizami Rayon İcra Hakimiyyətinin sabiq başçısı Arif Qasımovun öz vəzifəsini itirdikdən sonra Nizami rayonu Rüstəm Rüstəmov 72A ünvanda payçısı olduğu "Park Sity " MMC tərəfindən tikilən hündürmərtəbəli binada tikinti işlərinin dayandırılması barədə məlumat yayılmışdı. İddia edilirdi ki, buna səbəb vergi orqanının qərarı olub. ""Park City" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus tikilidə əmlakın siyahıya alınması tədbirlərini həyata keçirən vergi orqanı 457 432,91 vergi borcu müqabilində 480 000 manat məbləğində əmlakı (obyekti) siyahıya alıb. Bununla bağlı Bakı Kommersiya Məhkəməsində keçmiş Vergilər Nazirliyinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinin cavabdeh "Park City" MMC-yə qarşı siyahıya alınmış əmlakın açıq hərracda satılması tələbinə dair şikayətinə baxılması barədə məhkəmə prosesi də keçirilib" deyə qeyd olunurdu. Belə görünür ki, aradan keçən müddətdə şirkətin vergi borcları daha da artıb və artıq həmin məbləğ milyonlarca manatla ifadə edilir.

Mövzu ilə bağlı KİV-lərdə başqa maraqlı detallara da toxunulurdu. Məsələn, "aktualinfo.org" saytı yazırdı ki, kommersiya qurumunun hüquqi şəxslərin dövlət reyestrinə daxil edilmiş məlumatlarında "Park City" (VÖEN 1602855941 ) Məhdud Məsuliyyətli Cəmiyyətinin 10.03.2017-ci il tarixdə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsində dövlət qeydiyyatına alındığı göstərilir. Reyestr məlumatlarında nizamnamə kapitalı 100 manat olan MMC-nin hüquqi ünvanının Bakı şəhəri Nizami rayonu, Rüstəm Rüstəmov küç, ev ev 72A, qanuni təmsilçisi kimi isə Dadaşov Zaur Dadaş oğlu qeyd olunub.O da iddia edilirdi ki, həmin şəxsin qanuni təmsilçiliyi formal xarakter daşıyır, bu şirkət başqa bir iş adamına məxsusdur. Üstəlik, digər bir iddiada adıçəkilən şirkətdə Nizami rayonunun keçmiş başçısı Arif Qasımovun da payı olduğu bildirilirdi. Lakin maraqlıdır ki, ölkə mediasında yer alan bu iddialara nə "Park City" MMC, nə də sabiq başçı rəsmi münasibət bildirməmiş, nəyə görəsə iddiaları yalanlamaq ehtiyacı duymamışdı.

Daha bir ilginc məqam da var. Arif Qasımovun icra başçısı postunu itirdikdən sonra özünə yeni tikinti şirkəti yaratdığı, elə həmin şirkət xətti ilə də Nizami rayonu ərazisində başqa bir göydələn ucaltdığına dair də xəbərlər yayılıb. Lakin payçısı olduğu bildirilən "Park City" MMC illərdir yığılan vergi borclarını ödəyə bilmir, hətta bu borclar artıq astronomik həddə çatıb. A.Qasımovun bütün bu deyilənlərə aydınlıq gətirməməsi, vergi borcu, az qala, 3 milyon manata çatan və ona görə də aidiyyatı dövlət qurumu tərəfindən məhkəməyə verilən şirkətin isə sözügedən mövzuda susqunluq nümayiş etdirməsi səslənən iddialarda həqiqət payının yüksək olduğunu söyləməyə imkan verir.

Xatırladaq ki, Nizami rayonunun sabiq icra başçısı bu vəzifəsini 2020-ci ilin sentyabrında qalmaqallı şəkildə itirib. Belə ki, onun postundan azad edilməsinə AzTV-nin ötən il Nizami rayonunun M.X.Şərifli və Ş.Mirzəyev küçələrinin kəsişməsində yerləşən parkda qanunsuz tikilmiş obyektlə bağlı hazırladığı süjetin səbəb olduğu bildirilib. Süjetdə bildirilib ki, dövlətin həyata keçirdiyi sosialyönümlü layihələrin hər biri vətəndaşların güzəranının daha da yaxşılaşdırılmasına hesablandığı halda bəzi şəxslər yalnız maddi qazanc haqqında fikirləşir. Maddi qazanc uğrunda görülən işləri, vətəndaşların haqlarını heçə belə saymaqdan çəkinmirlər.

Qeyd olunub ki, bəzi hallarda acgözlük, artıq tamah bütün mənəvi dəyərləri üstələyir. Vətəndaşlar üçün salınan bu parkda ot örtüyünün üzərində hansısa qazanc məqsədli obyektin tikilməsini, yəqin ki, başqa cür izah etmək mümkün deyil. Vətəndaşlar da belə vəziyyətdən məmnun deyillər.

Reportajın efirə getdiyi günün ertəsi səhər saatlarında sakinlərin narazılığına səbəb olan obyekt sökülüb, elə həmin gün də Arif Qasımovun vəzifədən azad edilməsi ilə bağlı sərəncam imzalanıb.

Onu da yada salaq ki, A.Qasımov həmin posta 2015-ci ildə təyin olunmuşdu. Onun icra başçısı işlədiyi dövrdə özünə iri biznes şəbəkəsi qurduğu, o cümlədən Nizami rayonu ərazisində saysız-hesabsız obyektlərə, mənzillərə yiyələndiyi barədə məlumatlar hələ vəzifədə olarkən geniş yayılmışdı. A.Qasımov isə həmin məlumatları təsdiqləməsə belə, təkzib də etməmişdi.

***Sənan Mirzə***

# İcma Avropa İttifaqının anti-Azərbaycan bəyanatını şiddətlə qınadı

***"Biz Ermənistandan qovulmuş azərbaycanlıları təmsil edən Qərbi Azərbaycan İcması olaraq, Avropa Şurasının Nazirlər Komitəsinin iclasında Avropa İttifaqının (Aİ) 2023-cü il oktyabrın 18-də verdiyi anti-Azərbaycan bəyanatını şiddətlə qınayırıq".***

"Unikal" xəbər verir ki, bu barədə İcmanın yaydığı bəyanatda bildirilib. "Öncə vurğulayaq ki, bu bədnam bəyanatı məhz 18 oktyabrda - Azərbaycan Dövlət Müstəqilliyinin Bərpası Günündə verməklə Aİ ölkəmizə və xalqımıza qərəzini simvolik şəkildə ifadə etmişdir. Bəyanatın məzmununa gəlincə, qeyd edək ki, sənəd qərəzlidir, ayrı-seçkilik xarakteri daşıyır, sülhə mane olur və Ermənistanın törətdiyi müharibə cinayətlərinə və insanlıq əleyhinə cinayətlərə haqq qazandırır.

İlk növbədə, vurğulamaq istərdik ki, qayıdış hüququnu ancaq Qarabağ ermənilərinə şamil etməklə və Ermənistandan qovulmuş azərbaycanlıların bu hüququnu inkar etməklə Aİ azərbaycanlılara qarşı etnik əsasda ayrı-seçkiliyini açıq şəkildə göstərmişdir.

Bundan əlavə, münaqişə zamanı törədilmiş çoxsaylı hərbi cinayətlərə baxmayaraq, Aİ-nin "bütün Qarabağ erməniləri" üçün amnistiya tələbi bizi dərindən narahat edir. Müharibə cinayətlərinə amnistiyanın verilməsi təkcə ədalət və hesabatlılıq prinsiplərini pozmur, həm də cəzasızlıq mühiti yaratmaqla regionda davamlı sülh və barışığı mümkünsüz edir. Aİ-nin müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlər üçün amnistiya tələb etməsi bu qurumda irqçi mentalitetin ayaq açmasını və humanizm dəyərlərinin aşınmasını, eləcə də onun regionda sülh və ədalətin bərqərar olmasında maraqlı olmadığını göstərir.

Bundan əlavə, bəyanatda Azərbaycanı yerli əhalinin insan hüquqlarını və mədəni irsini qorumağa çağırılsa da, Ermənistandan və işğal olunmuş Azərbaycan ərazilərindən qovulmuş azərbaycanlıların hüquqları və mədəni irsi ilə bağlı Ermənistanın məsuliyyəti barədə heç bir çağırış edilmir. Bu, Aİ-nin qərəzli və anti-Azərbaycan yanaşmasının növbəti sübutudur.

Nəhayət, bəyanatda Azərbaycan Ermənistanın ərazi bütövlüyünə sadiqliyini təsdiq etməyə çağırıldığı halda, Ermənistana oxşar çağırış edilmir. Ermənistanın Azərbaycan ərazilərini onilliklər ərzində işğal altında saxlaması və Aİ-nin ona göz yumması faktını nəzərə alsaq, Aİ bu çağırışı ilə faktiki olaraq Ermənistanı Azərbaycana qarşı növbəti hərbi təcavüzə cəsarətləndirir", - İcmanın bəyanatında vurğulanıb.

Qeyd edilib ki, Aİ-nin bu bəyanatı və son dövrlər nümayiş etdirdiyi mövqe onun sülh üçün tərəfdaş kimi etibarını və rolunu sarsıtmışdır: "Biz Aİ-ni anti-Azərbaycan yanaşmasından əl çəkməyə, insanların hüquq və ləyaqət baxımından bərabərliyi, eləcə də dövlətlərin suveren bərabərliyi prinsiplərinə və Ermənistandan qovulmuş azərbaycanlıların qayıdış hüquqlarına hörmət etməyə çağırırıq".

# Səfərbərlik Xidmətində işləmək istəyənlərin nəzərinə




***Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti həkim mütəxəssislər və tibb işçiləri üzrə vakansiya elan edib.***

Bu barədə "Unikal"a Dövlət Xidmətindən məlumat verilib. Bildirilib ki, həkim-terapevt , həkim-nevropatoloq, həkim-psixiatr, həkim-otorinolarinqoloq, həkim-dermatovenerolog, həkim-cərrah, həkim-oftalmoloq, həkim-rentgenoloq və texnik USM (ultrason müayinəsi) mütəxəssisi, elektrokardioqrafiya, exokardioqrafiya, elektroensefaloqrafiya-funksional diaqnostika vakansiyalar üzrə müraciət etmək istəyənlər info@seferberlik.gov.az elektron poçtuna yaza və ya anket (https://exidmet.seferberlik.gov.az/UnregisteredApp.../Create) doldura bilərlər.

Qeyd edək ki, müraciət zamanı şəxsiyyət vəsiqəsinin FİN kodunu yazmaq mütləqdir.

Ətraflı məlumat üçün 9100 Çağrı Mərkəzinə zəng vura bilərsiniz.

# Kamran Əliyev Çinin Baş prokuroru ilə görüşdü



*Xəbər verildiyi kimi Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Pekində işgüzar səfərdədir.*

"Unikal" xəbər verir ki, bu gün Çin Xalq Respublikasının Baş prokuroru Yinq Yonq ilə ikitərəfli görüş keçirilib.

Nümayəndə heyətini səmimi salamlayan Yinq Azərbaycan və Çinin dost dövlətlər olduğunu bildirərək bir çox sahəni əhatə edən uğurlu əməkdaşlığın davam etdirildiyini vurğulayıb. Yinq Yonq ötən ilin sentyabr ayında Səmərqənddə dövlət başçılarının görüşünü xatırladaraq, bu dialoqun ölkələrimizin müxtəlif dövlət qurumları, o cümlədən prokurorluqlarımız arasında əlaqələrin inkişafına yeni təkan verdiyini bildirib. Bu ilin mart ayında isə Baş prokuror vəzifəsinə təyin olunması ilə əlaqədar təbrik məktubuna görə azərbaycanlı həmkarına təşəkkürünü ifadə edib.

Kamran Əliyev qonaqpərvərliyə görə minnətdarlığını bildirərək ölkələrimiz arasında əsrlər boyu mövcud olan ikitərəfli əlaqələrin tarixindən danışıb. Müstəqilliyin ilk illərində Ulu öndər Heydər Əliyevin, müasir zamanımızda isə Prezident cənab İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri cənab Si Cinpinin uzaqgörən siyasətləri nəticəsində iki ölkə arasında olan münasibətlərin yüksələn xətlə və uğurla inkişaf etdiyi vurğulanıb.

Baş prokuror Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulduğunu, bir ay öncə isə Azərbaycan Ordusu tərəfindən aparılmış lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu barədə həmkarını məlumatlandırıb.

Ölkə rəhbərliyinin diqqət və qayğısı ilə işğaldan azad olunmuş ərazilərdə geniş quruculuq bərpa işlərinin aparıldığı bildirilərək, bu proseslərdə Çin şirkətlərinin rolu xüsusi vurğulanıb.

Daha sonra tərəflər prokurorluqlarımız arasında hüquqi və institusional əməkdaşlığın ikitərəfli və beynəlxalq platformalar çərçivəsində genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar. Cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquqlarının qorunması, qarşılıqlı peşəkar səfərlər və təcrübə mübadiləsini nəzərdə tutan əməkdaşlıq haqqında memorandumun imzalanması barədə razılığa gəlinib.

Yinq Yonq həmkarını növbəti ilin aprel ayında Makauda keçiriləcək Beynəlxalq Prokurorlar Assosiasiyasının İcraiyyə Komitəsinin iclasına, Kamran Əliyev isə həmkarını 2024-cü ilin sentyabr ayında ölkəmizdə keçiriləcək ümumdünya prokurorlarının illik konfransına işgüzar səfərə dəvət edib.

Həmçinin, cinayətkarlıqla mübarizə sahəsində tərəfləri maraqlandıran bir sıra digər məsələlər müzakirə olunub.

Görüşdə Azərbaycan Respublikasının Çin Xalq Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Bünyad Hüseynov iştirak edib.

# DİN-dən saxta kredit elanları ilə bağlı XƏBƏRDARLIQ

***Daxili İşlər Nazirliyi (DİN) saxta kredit elanları ilə bağlı vətəndaşlara xəbərdarlıq edib.***

Bu barədə "Unikal"a DİN-dən bildirilib. "Sürətli və aşağı faizli kredit imkanı" kimi başlıqlı bankların adlarını və ya loqolarını təqlid edərək fişinq məqsədilə göndərilən mesajlara (keçidlərə) diqqət edin.

Belə saxta və imitasiyalı linklərə tıklamayın! Şəxsi və kart məlumatlarınızı paylaşmayın!".

# Hərbçilərlə bağlı bu qaydalar sərtləşdiriləcək

***Ordu mənsublarına yaraşmayan hərəkətlərlə hərbi etika qaydalarını, eləcə də mobil telefonlardan istifadə zamanı nizamnamələrin tələblərini və müvafiq əmrləri kobud şəkildə pozan hərbi qulluqçular barəsində bundan sonra da ciddi tədbirlər görüləcək.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilib.

Qeyd olunub ki, qaydaların daha da sərtləşdirilməsi ilə bağlı qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üçün aidiyyəti üzrə yeni təkliflər hazırlanaraq təqdim edilib.

# Əsabil Qasımov ənənəvi ampluada

## Sabiq deputat-biznesmenin adı yenə də bir yandan unun bahalaşmasına, o biri yandan tikinti qalmaqalına görə gündəmə gəlib

***Ötən həftə son bir ayda Azərbaycanda unun qiymətinin bahalaşdığı barədə məlumat yayılıb. Bildirilib ki, topdansatış mərkəzlərində satılan 50 kiloqramlıq un kisəsinin qiymətində 1 manata yaxın artım olub. Əlavə edilib ki, ölkədə unun topdansatışı ilə 23 şirkət və bir fərdi sahibkar məşğul olur. Əksər satış mərkəzlərində qiymət artımı qeydə alınıb. Məsələn, "yeniavaz.com" yazıb ki, ən yüksək artım Xızı rayonunun Giləzi qəsəbəsində yerləşən fiziki şəxs İsgəndər Mirzəyevə məxsus topdansatış mərkəzində olub. Avqust ayının sonunda burada satılan 50 kiloqramlıq un kisəsinin topdansatış qiyməti 26 manat 10 qəpik olduğu halda, oktyabr ayının əvvəlində 27 manat 25 qəpiyə qaldırılıb. Bundan başqa "Dəvəçi-Dəyirman" MMC, "Dəvəçi-Taxıl" MMC, "Şəmkir Un-Yem" MMC və "Sünbül 2012" MMC-yə məxsus topdansatış mərkəzlərində 50 kiloqramlıq un kisəsinin qiyməti son bir ayda 1 manat artıb.***



Digər topdansatış mərkəzlərində isə 50 kiloqramlıq un kisəsinin qiyməti 95 qəpik artıb. Yalnız bir neçə mərkəzdə unun qiyməti dəyişməz qalıb. Xəzər TV-də gedən süjetdə də bildirilib ki, topdansatış mərkəzlərində satılan 50 kiloqramlıq un kisəsinin qiymətində 1 manata yaxın artım olub. Satıcıların sözlərinə görə, kisə unun qiymətində artım çox olmasa da, kiloqramla satışda 15 faizə yaxın fərq var. Amma, hələlik çörəyin qiymətində heç bir dəyişiklik yoxdur.

Məlumat üçün onu da qeyd edək ki, ötən ilin dekabr ayından etibarən unun qiymətində davamlı ucuzlaşma müşahidə olunurdu. Məsələn, ötən ilin dekabr ayında topdansatış mərkəzlərində 50 kiloqramlıq un kisəsinin qiyməti 38-39 manat arasında dəyişib. Təxminən 8 aydan sonra - bu ilin sentyabr ayında un yenidən bahalaşmağa başlayıb.Unun bahalaşması barədə xəbərlər fonunda sabiq deputat, biznesmen Əsabil Qasımovun adı yenidən gündəmə gəlib. Məsələ burasındadır ki, onun ailə şirkəti olan "Karat Holdinq" Azərbaycan un məhsulları bazarında kifayət qədər böyük çəkiyə malikdir. Elə ona görə də ölkədə hər dəfə unun qiymətində bahalaşma olanda diqqətləri sabiq deputata çevirilir. Hələ 2015-ci ildə "Karat Holdinq"in bahalaşma qərarı ciddi sosial etirazlar doğurmuşdu. Nəticədə holdinqin əsas istehsal sahəsinin yerləşdiyi İmişli şəhərində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları əməliyyat keçirmiş, "Karat"da istehsal olunan unun topdansatışı ilə məşğul olan iki böyük anbardan birinin sahibi tutulmuşdu. Bu, Əsabil Qasımova məxsus şirkətin istədiyi vaxt unun qiymətləri ilə "oynadığı" barədə ictimai qənaəti gücləndirmişdi. Ona görə də yeni bahalaşma xəbərləri fonunda diqqətlərin yenidən sabiq deputata yönəlməsi təbiidir.

Maraqlıdır ki, eyni vaxtda Ə.Qasımov özü üçün ənənə halı alan başqa bir iddia, tikinti sahəsi ilə bağlı şikayətlə də gündəmə gəlib: Nəsimi rayonunun Novruzov qardaşları küçəsinin ("Papanin" adlanan ərazi) sakinləri "editor.az" saytına şikayət ünvanlayaraq bildiriblər ki, sabiq deputata məxsus "Pilot-16? şirkəti mütəmadi olaraq, tikinti və əməyin mühafizəsi normalarına əməl etmədən, gecənin gec, səhərin çox erkən saatlarında inşaat və betonlama işləri apararaq, vətəndaşların istirahət və sağlamlıq hüquqlarını kobud şəkildə pozur. Vətəndaşların etirazlarına, rəsmi qurumlara müraciətlərinə baxmayaraq, şirkət öz qanunsuz əməllərini davam etdirir. "Bu evində xəstə, körpə olan, səhər saatlarında işə gedəcək vətəndaşların istirahət, sağlamlıq hüquqlarının kobud şəkildə pozulması, eyni zamanda qanunlara, dövlət orqanlarının tələblərinə açıq hörmətsizlikdir" - şikayətçilər bildiriblər.

Xatırladaq ki, Ə.Qasımovun Azərbaycandakı biznesinin bir qolunu da tikinti sektoru təşkil edir. Ona məxsus inşaat şirkətləri ilə bağlı şikayətlər çoxdan adiləşib. Bu sırada həmin şirkətlərin qanunsuz söküntülərə imza atması, vətəndaşlara normal kompensasiya vermək istəməməsi barədə xəbərlər xüsusi yer tutur. Hətta iş o yerə çatmışdı ki, ötən il sabiq deputata məxsus olduğu deyilən şirkət tərəfindən Bakı şəhəri, Nəsimi rayonu, C.Məmmədquluzadə küçəsi 998-cı məhəllə (Nəsimi rayonu, Abbas Səhhət küçəsi 13k) ünvanında yerləşən qanunsuz bina sökülmüşdü. Belə ki, Fövqəladə Hallar Nazirliyinin (FHN) əməkdaşları vətəndaşların şikayəti əsasında iki hündürmərtəbəli binanın yaxınlığında aparılan tikintiyə baxış keçirilmiş və qanunsuz tikinti aşkarlanaraq söküntü qərarı verilmişdi.

Bir sözlə, keçmiş deputatla bağlı şikayətlər artıq ənənəyə çevrilib: keçmiş deputat, eyni zamanda oliqarx olan Qasımovun adı ya unun bahalaşması, ya da tikinti qalmaqalları ilə bağlı xəbərlər fonunda gündəmə gəlir. Və deyəsən, bu "ənənə" hələ uzun müddət pozulmayacaq...

***Toğrul Əliyev***

UNI-37_27 IYUI-QARA.qxd 10/19/2023 10:04 PM Page 12



## 5.3.4. ictimai və dövlət maraqlarının müdafiəsi;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Dövlət və ictimai maraqların vəhdət təşkil etdiyi ölkə

## Ceyhun Məmmədov: "Xankəndidə, Xocalı və Ağdərədə bu gün bayrağımızın dalğalanması göstərdi ki, dövlətin verdiyi qərarlar daha düzgündür"



***Azərbaycanda dövlət və cəmiyyət maraqlarının mükəmməl vəhdəti mövcud olsa da, bəzən bu məsələdə də müəyyən fikir ayrılıqları müşahidə olunur. Dövlətin ölkənin taleyüklü məsələsi ilə bağlı verdiyi qərar bəzən müzakirə mövzusuna çevrilir. Hətta müxalif qüvvələr tərəfindən verilmiş qərarın ictimai maraqlarla üst-üstə düşmədiyinə dair tənqidi fikirlər səslənir.***

Bu cür yanaşmalara biz daha çox Qarabağ probleminin həll edilməsi ilə bağlı verilmiş qərarlarda rast gəldik. İstər Birinci Qarabağ müharibəsindən sonra atəşkəsin elan edilməsində, istər də 44 günlük müharibədə zəfər çaldıqdan sonra müharibənin dayandırılması zamanı cəmiyyətdə müxtəlif fikir ayrılıqları yarandı. Kimi son qarış torpaqlarımız işğaldan azad edilənədək ordumuzun vuruşmalı olduğunu, kimsə də həmin dövrdə müharibənin dayandırılmasının ən düzgün qərar olduğu fikrində idi. Amma 44 günlük müharibədən, eləcə də Azərbaycanın bu günlərdə apardığı antiterror əməliyyatından sonra Xankəndi, Ağdərə və Xocalıda dövlət bayrağımızın sancılması dövlətin verdiyi qərarların doğru olduğunu göstərdi.

Millət vəkili Ceyhun Məmmədov "Unikal"a açıqlamasında bildirib ki, sivil cəmiyyətlərdə dövlət maraqları ilə ictimai maraqların üst-üstə düşməsi vacibdir. Onun sözlərinə görə, əslində dövlətin maraqları daha üstün olsa da, bəzən şəxsi mənafeyin ictimai maraqdan üstün tutulduğunu görürük.

"Bəzən dövlət hansısa qərarları qəbul edir, təhlükələri əvvəldən gördüyü üçün müəyyən qərarlar verir, amma insanlar bunu bilmədiyi üçün düşünür ki, dövlətin verdiyi qərar yanlışdır. Biz bunun Qarabağ məsələsində şahidi olduq. Bəzən cəmiyyət bu kimi məsələlərdə prosesi diqqətlə təhlil edə bilmir.Beləcə dövlətin verdiyi qərarın düzgün olub-olmadığını sorğulayır. 44 günlük müharibədən sonra insanların bəzilərində belə fikir vardı ki, zəfəri tamamlamaq lazımdır. Torpaqlarımızın son qarışı belə düşmən tapdağından təmizlənməmiş müharibəni dayandırmaq olmazdı. Amma Azərbaycanın bu ilin sentyabr ayında Xankəndidə apardığı antiterror əməliyyatı bu fikirlərin yanlış olduğunu təsdiqlədi. Halbuki cəmiyyətdə bu antiterror əməliyyatınadək belə bir fikir vardı ki, dövlət ictimaiyyətin marağını düşünmür. Amma Xankəndidə, Xocalı və Ağdərədə bu gün bayrağımızın dalğalanması göstərdi ki, dövlətin verdiyi qərarlar daha düzgündür. Bu zaman milli maraqlar, ölkənin təhlükəsizliyi düşünülərək müvafiq qərarlar verilib. Bəzən insanlar tərəfindən fərqli düşünənlər də olur. Amma nəticəni təhlil etdikdə dövlətin həmin ərəfədə nə qədər düzgün qərar verdiyinin fərqinə varmaq olur" deyə C. Məmmədov bildirib.

Qeyd edək ki, dövlət başçısı İlham Əliyev də verilmiş qərarların, atılmış addımların yüz ölçüb bir biçildiyini, bu zaman dövlətin maraqlarının, insanların təhlükəsizliyinin diqqətdə saxlanıldığını vurğulayıb.

Prezident bildirib: "Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm!".

İlham Əliyev hər zaman dövlətin maraqlarının qorunduğunu, ictimai maraqların diqqətdə saxlanıldığını vurğulayır.

"Burada oturmuş özünü "prezident" adlandıran 3 təlxək bu gün öz layiqli cəzasını gözləyir. Bu binaların birində oturmuş, özünü "baş nazir" adlandıran bir adam görəsən bu gündəmi bizi hədələməyə cürət edəcək? Onun da çayı bu gün istintaq təcridxanasında verilir". Bu sözləri Prezident İlham Əliyev oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən deyib. Dövlətimizin başçısı bildirib: "Burada özünü "xarici işlər naziri" adlandırmış bir separatçı o vaxt belə kinayə ilə deyirdi ki, Azərbaycan Bayrağını Xankəndidə qaldırmaq istəyirsə, səfirlik açsın bizim ölkəmizdə. İndi onun da çayı orada, təcridxanada verilir. Bizim Bayrağımız isə bax, oradadır. Bu, dərs olmalıdır onlara. Əfsuslar olsun ki, mənim 20 il bundan əvvəl dediyim və ondan sonra dəfələrlə təkrar etdiyim sözlər onlara çatmadı. Onlar hesab edirdilər ki, bu, sadəcə olaraq, sözdür. Xeyr, mən nəyi demişəmsə, onu da etmişəm, bunu hər kəs bilir, o cümlədən Ermənistanda da bunu bilirlər və bunu unutmasınlar. Vətən müharibəsini unutmasınlar! Antiterror tədbirlərini unutmasınlar!".

Prezident onu da vurğulayıb ki, diplomatik danışıqlar nəticə vermədikdə Azərbaycan güc yolu ilə öz torpaqlarını işğaldan azad etməli oldu : "Mən görürdüm, bəzi hallarda bu hadisələrə qədər Azərbaycan vətəndaşları, o cümlədən köçkünlər hesab edirdilər ki, belə diplomatik uğurlar, əlbəttə, önəmlidir, ancaq onlar məsələnin həllini təmin etmir".

Göründüyü kimi, dövlət daim ictimai maraqları nəzərə alır. Bununla belə ölkə əhimyyətli məsələlərdə qərarlar verilərkən dövlətin maraqlarının qorunması önə çəkilir. Aparılmış uğurlu siyasət nəticəsində verilmiş qərarlar həm dövlətin maraqlarına xidmət edir, həmçinin də ictimaiyyət bu qərarlardan məmnun qalır.

Hərbi və siyasi ekspertlərin də qənaətinə görə, 44 günlük Vətən müharibəsinin başlanması zamanında atılmış addım idi. Lazımı zamanda müharibənin dayandırılmasının nəticəsində Azərbaycan beynəlxalq müstəvidə öz mövqelərini möhkəmlətdi. Bundan sonra öz suverenliyini təmin etdi.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Ağdama qayıdışın vaxtı açıqlandı

***"Ağdam şəhərində görüləcək işlərin miqyası daha çoxdur. Bu gün orada genişmiqyaslı tikinti işləri gedir".***

"Unikal" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov deyib.

E.Hüseynov bildirib ki, Ağdamda 3 məhəllənin təməli qoyulub: "İki məhəllədə artıq işlərə başlanılıb. Yaxın zamanda daha 3 məhəllənin də təməli qoyulacaq. Gələn ilin əvvəlində tikinti işlərinə başlanılacaq. 2025-ci ilin ortalarından başlayaraq biz Ağdam şəhərində və onun ətraf kəndlərində məskunlaşmanı həyata keçirə bilərik".

# "Naxçıvan" Universiteti bağlanır? - Rektordan açıqlama




***Sosial şəbəkədə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən "Naxçıvan" Universitetinin bağlanacağı ilə bağlı məlumat yayılıb. Bildirilib ki, buna səbəb Naxçıvan Təhsil Nazirliyinin universitetdə keçirdiyi yoxlama zamanı ciddi pozuntuların aşkarlanmasıdır.***

"Unikal"ın məlumatına görə, Naxçıvan Universitetinin rektoru Anar Kazımov bildirib ki, belə bir rəsmi xəbər onlara daxil olmayıb:"Universitetimizə verilnə lisenziyanın 2024-cü il yanvar ayının 1-dən dayandırılması haqqında məlumatlar paylaşılıb. Universitetin bu və ya digər formada fəaliyyətinin davam etdirilməsi təsisçinin verə biləcəyi qərardır. Belə bir qərar olanda rəsmi şəkildə elan ediləcək. Guya yoxlamaların aparıldığı və pozuntuların aşkar edilməsi haqqında yazılır. Nə vaxt olub bu yoxlamalar? Hansı qanun pozuntuları aşkarlanıb?", - deyə rektor bildirib.

# Nəziri elektron qaydada ödəyəcəyik? - Açıqlama

***Məscidlərdə nəzir qutularına ianələrin ödənilməsi ilə bağlı yeni qaydalar hazırlanır.***

"Unikal"ın məlumatına görə, bunu Azərbaycanın Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

M.Qurbanlı bildirib ki, hazırda qaydalarla bağlı təkliflər hazırlanır.

"Hələlik ianələrin elektron ödənilməsi ilə bağlı qaydalar təsdiq olunmayıb. Milli Məclisdə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi ilə bağlı müzakirələr gedir. Qərar qəbul edilərsə, şərtlər çərçivəsində ianələrin qəbul edilməsi şərtləri açıqlanacaq", - deyə o əlavə edib.

UNI-37_27 IYUI-QARA.qxd 10/19/2023 10:04 PM Page 13



# Yaşlılıq ürək-damar xəstəlikləri riskini niyə artırır?



***Yuta Universitetinin (ABŞ) alimləri tədqiqat qrupunun bir hissəsi olaraq, qocalıqda ürək-damar xəstəlikləri riskinin artmasının DNT zədələnməsi ilə əlaqəli olduğunu izah etdilər.***

"Unikal" xəbər verir ki, araşdırmanın nəticələri "Aging" jurnalında dərc olunub.

Tədqiqatçılar insanların və siçanların ağciyərlərindəki mikrovaskulyar endotel hüceyrələrində DNT zədələnməsinin dərəcəsini (kimyəvi strukturunda dəyişikliklər) qiymətləndiriblər. Endotel qan damarlarının içərisini əhatə edən hüceyrə təbəqəsidir. Məlum olub ki, həm gəmiricilərdə, həm də insanlarda qocaldıqca zərər toplanır.

Zamanla bu kimyəvi dəyişikliklər qan damarlarını daha az elastik edir və arterial sərtliyə səbəb olur. Damarlardan adekvat qan nəqli üçün lazım olan funksiyaların itirilməsi var. Beləliklə, DNT zədələnməsi arterial disfunksiyaya kömək edir ki, bu da hipertoniya, insult və varikoz damarları kimi ürək-damar xəstəliklərinin yaranmasına səbəb olur.

Alimlər onu da qeyd ediblər ki, insan orqanizmində arterial hüceyrələr ilk qocalanlar sırasındadır. Ürək və damar xəstəliklərinin inkişafında DNT zədələnməsinin rolunu daha dərindən anlamaq üçün əlavə tədqiqatlara ehtiyac var.

# Təbiətə 16 min manatlıq ziyan vuran şəxsə cinayət işi açıldı



***Mingəçevir şəhəri, Aydın Məmmədov küçəsində qanunsuz ağac kəsilməsi faktı üzrə Mingəçevir şəhər prokurorluğunda***

"Unikal" xəbər verir ki, araşdırma zamanı məscidin həyətində 60 ədəd müxtəlif cinsli ağac, 9 ədəd fındıq kolunun kökündən çıxarılaraq məhv edilməsi nəticəsində təbiətə 16 min manatdan artıq ziyan vurulması müəyyən edilib.

Faktla bağlı Mingəçevir şəhər prokurorluğunda Cinayət Məcəlləsinin 259.2.3, 259.2.4 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə və külli miqdarda ziyan vurmaqla qanunsuz ağac kəsmə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb.

Hazırda ibtidai istintaq davam edir.

# 850 qram çəki ilə doğuldu - 2335 qramla evə buraxıldı

***İki ay əvvəl Azərbaycanda çəkisi 850 qram olan uşaq dünyaya gəlib.***

"Unikal" xəbər verir ki, körpə Sumqayıt Tibb Mərkəzinin tabeliyində fəaliyyət göstərən Perinatal Mərkəzində doğulub.

Belə ki, Bakı şəhəri Binəqədi qəsəbə sakini Təhminə Aslanovanın 26 həftəlik hamiləliklə cərrahi yolla ekstremal dərəcədə azçəkili və çoxlu sağlıq problemləri ilə dünyaya gətirdiyi körpə 2 ay müalicə edilib.

Tibb mərkəzinin mətbuat katibi Ramil Zeynallı sosial şəbəkə hesabında paylaşdığı postda qeyd edib ki, həddən artıq az bədən çəkisinə malik və vaxtından əvvəl doğulmuş yenidoğulmuşların müalicəsi çox uzun sürən və çətin bir proses olmaqla yanaşı, çox bahalı xidmət növünə daxildir:

"Ekstremal azçəkiyə malik olan körpələrin həm quruluş, həm də funksional baxımdan yetişməmiş orqan və sistemləri tibbi texnologiyaların dəstəyinə ehtiyacı olur. Digər tərəfdən, belə körpələrin sinir, görmə, eşitmə sistemləri və ağ ciyərləri tərəfindən qüsurlu qalmaq riski də böyük olur. Məqsəd körpələrin sağ qalmasından əlavə, əlil qalmaması üçün çalışmaqdır".

Məlumata görə, körpə sağlam vəziyyətdə 2335 qram çəki ilə evə yazılıb və Perinatal Mərkəzin Katamnestik izləmə kabinetində müşahidə də olacaq.

# Şirkətlər Ələt İqtisadi Zonasında bu şərtlərlə fəaliyyət göstərə bilər

***Ələt Azad Iqtisadi Zonasında fəaliyyət göstərməsi üçün şirkətlərə müəyyən tələblər qoyulub.***



"Unikal" xəbər verir ki, bunu Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov jurnalistlərə açıqlamasında deyib.

"Tələbimiz şirkətlərin ixrac üçün yüksək əlavə dəyərli məhsullar istehsal etməsidir. Eyni zamanda, istehsal məhsullarının 75 %-i xarici bazarlara çıxarılmalıdır. Ən əsas tələbimiz isə təbii ki, məhsulların beynəlxalq standartlara cavab verməsinin təmin olunmasıdır", - deyə V. Ələsgərov qeyd edib.

Qeyd edək ki, Ələt Azad İqtisadi Zonasının yaradılması barədə qərar 2017-ci ildə, bununla bağlı müvafiq qanun isə 2018-ci ildə qəbul edilib. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq 2021-ci il iyulun 1-də Prezident İlham Əliyevin iştirakı ilə Ələt Azad İqtisadi Zonasının təməli qoyulub. Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektardır.

Bu iqtisadi zonada investorlar üçün aşağıdakı fiskal və qeyri-fiskal imtiyazlar tətbiq edilir:

- İnvestorlar əlavə dəyər vergisi, ödəmə mənbəyində vergi, mənfəət vergisi və hər hansı digər korporativ vergidən azaddırlar;
- Zonada idxal və ixrac zamanı gömrük rüsumları və vergilər tətbiq olunmur;
- Aylıq əməkhaqqı 8 min manata qədər olan işçilər üçün gəlir vergisi tətbiq olunmur;
- Yüksəkixtisaslı əcnəbi işçilər üçün sosial sığorta ödənişləri könüllü, yerli işçilər üçün isə məcburi xarakter daşıyır;
- Əcnəbi hüquqi və fiziki şəxslərin Ələt Azad İqtisadi Zonasında mülkiyyət sahibi olmasına heç bir məhdudiyyət qoyulmur;
- Xarici investorlar üçün yerli tərəfdaş və səhmdar tələbi yoxdur;
- Valyuta əməliyyatları və ya mənfəətin repatriasiyasında heç bir məhdudiyyət yoxdur;
- İnvestorların əmlakı heç bir halda milliləşdirilə bilməz və Ələt Azad İqtisadi Zonası Səlahiyyətli Qurumu investorların əmlakını bu və ya digər məhdudiyyətlərdən qorunmasına təminat verir;
- Ələt Azad İqtisadi Zonası Səlahiyyətli Qurumu, həmçinin investorların əqli mülkiyyət hüquqlarının tam qorunmasına təminat verir.

# Həlak olmuş döyüşçülərin ailə üzvlərinə hansı güzəşt verilir...

***Həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin ailə üzvlərinə hansı vergi güzəşti verilir?***



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirilib ki, Vergi Məcəlləsinin 102.2.5-ci maddəsinə əsasən, həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarının (ərlərinin) və övladlarının hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılır.

Qeyd olunan güzəştdən faydalanmaq üçün fiziki şəxs tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əməkhaqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"na əsasən müvafiq güzəşt hüququnu təsdiq edən sənədlər fiziki şəxsin əmək kitabçasının olduğu əsas iş yerinə təqdim edilməlidir. Belə ki, həmin siyahının 1.5-ci bəndinə əsasən, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin vəsiqəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbəsinin və ya "DOST" Mərkəzinin arayışı və müvafiq olaraq Müdafiə Nazirliyinin, Ədliyyə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Xarici Kəşfiyyat Xidmətinin arayışları Vergi Məcəlləsinin 102.2.5-ci maddəsində nəzərdə tutulmuş güzəşt hüququnu təsdiq edən sənədlərdəndir.

Qeyd olunanlara əsasən, güzəşt hüququnun əldə edilməsi ilə bağlı müraciət edən fiziki şəxsin valideynlərinin həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçü olması müvafiq orqanlar tərəfindən verilmiş sənədlərdə (arayışlarda) göstərilməlidir.

# "Tərtər işi"ndə bəraət alan baş leytenanta bu qədər təzminat veriləcək

***"Tərtər işi" ilə bağlı 20 il müddətinə məhkum edilərək 5 il 7 ay sonra bəraət alan baş leytenant Sultan Zeydullayevə təzminat kəsilib.***

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, bu barədə Nəsimi Rayon Məhkəməsi qərar qəbul edib.

Məhkəmə iddiaçının tələbini qismən təmin edib. Qərara əsasən, S.Zeydullayevə maddi ziyana görə 115 min 642 manat, mənəvi ziyana görə 67 min manat, ümumilikdə 182 min 642 manat təzminat ayrılıb.

İş üzrə cavabdeh qismində tanınmış Maliyyə Nazirliyi qərardan narazı qalıb.

Qeyd edək ki, baş leytenant Zeydullayev Sultan Ramazanoviç 20 il müddətinə azadlıqdan məhrum edilmişdi. O, ötən il bəaət alaraq azadlığa buraxılıb.



UNI-37_27 IYUI-QARA.qxd 10/19/2023 10:04 PM Page 14



# Suvarma kanallarında texnikalar vasitəsilə lildən təmizləmə işləri davam etdirilir

***Füzuli və İmişlidə meliorativ tədbirlər görülür. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Bəhramtəpə Melioservis İdarəsi ölkənin əksər rayonlarında meliorativ tədbirlərini davam etdirir.***





İdarə təsərrüfatlararası, təsərrüfatdaxili suvarma və kollektor drenaj sistemlərinin lildən təmizlənməsi, hidrotexniki qurğuların təmiri, bərpası və yenidən qurulması, torpaq məcralı kanalların beton üzlüyə alınması və nov kanalların çəkilişi işlərini həyata keçirir. Bu işlərdən biri də Füzuli rayonu ərazisində aparılır. Su itkisinin qarşısının alınması, suyun maneəsiz olaraq fermerlərə çatdırılması üçün rayonun Əhmədalılar torpaq məcralı kanalın beton üzlüyə alınması işlərinə start verilib. Hazırda ərazidə torpaq işləri görülür.

Bəhramtəpə Melioservis İdarəsi İmişli rayonu ərazisində yerləşən əkin sahələrinin vaxtında, səmərəli və itkisiz suvarılması üçün nov kanalların quraşdırılması işlərini də həyata keçirir. Belə ki, nov kanalın keçdiyi ərazidə 450 hektar əkin sahəsinin suvarılması yaxşılaşacaq. Hazırda nov kanallar əraziyə daşınır və kanal boyu düzülür.

Qeyd edək ki, Bəhramtəpə Melioservis İdarəsi Füzuli və İmişli rayonları ilə paralel olaraq Neftçala rayonunda nov kanalın çəkilişini həyata keçirir. Plan üzrə işlərin oktyabr ayının sonuna qədər yekunlaşdırılması nəzərdə tutulub.

Yevlax Melioservis İdarəsi meliorativ tədbirlərini davam etdirir. Dilqəm Şərifov bildirib ki, Yevlax Melioservis İdarəsi ölkənin bir-neçə rayonunda yerləşən suvarma kanallarında texnikalar vasitəsilə lildən təmizləmə işlərini davam etdirir. Görülən meliorativ tədbirlər nəticəsində suvarma suyunun maneəsiz və itkisiz olaraq fermerlərə çatdırılması təmin edilir. Hazırda idarə suvarmada önəmli yerə malik olan Yuxarı Şirvan Kanalının Ağdaş rayonu ərazisindən keçən hissəsində bu işləri həyata keçirir. Bu kanalda işlər ümumi olaraq 77000 kubmetr ekskavatorla, 18800 kubmetr isə buldozer vasitəsi ilə nəzərdə tutulub. Görülən işlər meliorativ cəhətdən səmərəli olmaqla yanaşı kənd təsərrüfatında məhsul bolluğuna gətirib çıxarır.

Yevlax Melioservis İdarəsi Yevlax rayonunda da meliorativ tədbirləri həyata keçirir. Hazırda Ərəb kanalına cəlb olunan ekskavatorla kanalın lillənmiş və qamışla örtülmüş hissələri tam olaraq təmizlənir. Bu günə qədər Yevlax rayonunun 15 kəndində, Xaldan, Rüstəmli, Qoyunbinəsi, Kövər, Nemətabad, Bəydili və digər kəndlərdə görülən işlər nəticəsində 8500 hektar əkin sahəsinin suvarılması yaxşılaşıb. Həmin işlərin görülməsinə 4 ekskavator və 1 buldozer cəlb olunub.

Qeyd edək ki, Yevlax Melioservis İdarəsi Yevlax, Ağdaş və Göyçay rayonlarında ilin sonuna qədər meliorativ tədbirlərini yekunlaşdırmağı planlaşdırır.

***Hüseyn İsgəndərov***

# Növbəti illər üçün Ortamüddətli Büdcə Çərçivəsi açıqlandı



***Maliyyə Nazirliyi 2024-2027-ci illəri əhatə edən Ortamüddətli Büdcə Çərçivəsini açıqlayıb.***

"Unikal" xəbər verir ki, sənəd "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və ortamüddətli proqnoz göstəricilərinin hazırlanması barədə" Nazirlər Kabinetinin 2023-cü il 30 yanvar tarixli 119s nömrəli Sərəncamına əsasən hazırlanıb.

Ortamüddətli Büdcə Çərçivəsi "2024-cü il dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və ortamüddətli proqnoz göstəricilərinin hazırlanması barədə" Nazirlər Kabinetinin 30 yanvar 2023-cü il tarixli sərəncamına əsasən hazırlanıb.

# Vətən sevdalıları - Lənkəran şəhidləri...



***Xalq, dövlət qarşısında xüsusi xidmətləri olan, İkinci Qarabağ müharibəsində son damla qanına qədər döyüşüb, öz qəhrəmanlığı ilə dastan yazan Mirməhəmmədəli Rzazadə, Qüdrət Məmmədzadə, Sənan Ağazadə və Əmrah Cəfərli Lənkəran elində boya-başa çatıblar. Bu, Vətən sevdalıları qısa ömür yaşasalar da, doğma Azərbaycanına canını fəda etməklə əbədi parlaq günəşə çevrildilər. Lənkəran camaatı qəhrəmanlıq simvoluna dönən oğlanlarını ürəyində yaşatmaqla, bir an belə onları unutmurlar. Həm də adlarını özünə həkk edən yeni-yeni yadigarlar qoyurlar.***

Artıq Vətən sevdalıların əbədiyyət dünyasına qovuşduğu gündən üç il ötür. Bu münasibətlə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, icra aparatının rəsmi şəxsləri, rayon ictimaiyyətinin nümayəndələri və şəhid ailələrinin üzvləri adı yeni, şanlı tariximizə düşən igid oğlanların uyduğu məzarlarını ziyarət edib, xatirələrinə ehtiram əlaməti olaraq onlara tər güllərdən çələng hörüblər. Həmçinin rayon rəhbəri şəhid ailə üzvləri ilə söhbət edib, qayğı və problemlərini öyrənib.

23 yaşında canını Vətəninə, torpağına fəda edən Mirməhəmmədəli Tərlan oğlu Rzazadə Lənkəranın Şilavar kəndindəndir. Özünü bilən gündən yağı düşmənin Qarabağa ədalətsiz təcavüzü onu çox narahat edib. Həqiqi hərbi xidməti döyüş bölgəsində keçib, doğma Azərbaycanın keşiyini layiqincə çəkib, hər an işğal altında olan Vətən torpaqların azadlığı uğurunda canını qurban verməyə hazır durub. Əsgərliyi başa vurub üzüağ evinə dönsə də, əlinə silah alıb döyüş meydanında düşmənin ilan başını əzmək istəyi onu bir an belə rahat buraxmır. Odur ki, İkinci Qarabağ müharibəsi başlanan kimi Mirməhəmmədəli döyüşə yollanıb. Ölümdən qorxmadan ermənidığalarına vurduğu sarsıdıcı zərbələrlə Vətənə olan məhəbbətini bir daha sübut edib. 17 oktyabrda Cəbrayıl döyüşləri zamanı Mirməhəmmədəli namərd gülləsinə tuş gəlib şəhadətə yüksəlib. Şərəfli ölümü ilə ürəklərə köçən qəhrəman döyüşçü həm də dövlət tərəfindən "Vətən uğrunda", "Cəsur döyüşçü", Cəbrayılın, Qubadlının azadlığı uğrunda medallarına layiq görülüb.



44 gün çəkən İkinci Qarabağ müharibəsində Vətən torpaqlarını düşmən tapdağından azad etmək üçün döyüş meydanına atılan Qüdrət Tofiq oğlu Məmmədzadə Lənkəranın Sütəmurdov kəndində doğulub boya-başa çatıb. Haqq savaşımızın ilk günündə qəhrəmanlığını müharibə meydanında göstərməklə 19 yaşında şəhid olub. Ölüm-dirim müharibədə düşmənin çox saylı canlı qüvvəsini, saysızhesabsız texnikasını məhv edib. Vətən uğrunda canından keçməyi özünə şərəf bilən igid döyüşçü Qüdrət Goranboy rayonu, Tapqaraqoyunlu kəndində şəhid olub. Qısa ömür yaşasa da, yazdığı tarixlə əbədiyyət qazanır. Şəhidimiz Qüdrət Məmmədzadə ölümündən sonra Ali Baş Komandanın sərəncamları əsasında "Vətən uğrunda", "Cəsur döyüşçü" və digər medallarla təltif edilib.

Hələ uşaq yaşlarında həyatının mənasını xalqının, doğma yurdunun xoşbəxtliyində görən Sənan Nizami oğlu Ağazadə 2000-ci ildə Lənkəran rayonunun Göyşaban kəndində dünyaya göz açıb. Bu, Vətən sevdalısının həqiqi hərbi xidməti qaynar bölgələrin birin də keçib. 1 il 3 ay xidmət etdikdən sonra İkinci Qarabağ müharibəsi başlanıb. Sənan əlinə silah alıb Füzuli istiqamətində gedən döyüşlərdə hünər göstərib. Belə ki, dığalara qarşı qəhrəmanlıqla vuruşub, onlara qan qusdurub. Elə Füzuli savaşında adını tarixə yazmaqla, şəhidlik zirvəsinə ucalıb.

Sənan Ağazadənin şücaətinə dövlətimiz tərəfindən yüksək qiymət verilib. O, ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olmasına görə", İgidliyə görə" medallarına layiq görülüb.

İndi ruhu parlaq ulduzlar dünyasında dolaşan, qəhrəmanlığı dillərdə dastan olan Əmrah Yusif oğlu Cəfərli Lənkəranın Şirinsu qəsəbəsində anada olub. İkinci Qarabağ müharibəsi başlayanda 30 il işğal altında qalan Azərbaycana məxsus torpaqları azad görmək arzusu onu da minlərlə Vətənin qeyrətli oğlu kimi yağıya qarşı döyüşə aparıb. Heç nədən çəkinmədən odun-alovun içinə atılır, əzmlə vuruşur. Xocavənd savaşında isə düşmənə göz açmağa imkan verməyən Əmrah aldığı qəlpə yarasından şəhidlik zirvəsinə ucalıb. 23 yaşında gələcək nəsillər üçün örnək olacaq bir tarix yazan Lənkəranın qəhrəman oğlundan həm də dövlət tərəfindən layiq olduğu "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları yadigar qalıb .

Bəli, Vətən bölünməz, şəhidlər ölməz. Vətən torpaqların hər qarışının azad olunması üçün Mirəhəmmədəli, Qüdrət, Sənan, Əmrah kimi qeyrətli oğullara borcluyuq...

***Zəfər Orucoğlu, AJB üzvü***

UNI-37_27 IYUI-QARA.qxd 10/19/2023 10:04 PM Page 15



# "3000-dən çox Qarabağ ermənisi Ermənistanı tərk edib" - Paşinyan



***Bu günə olan məlumata görə, Qarabağdan köçən 3000-dən çox insan Ermənistanı tərk edib.***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

"Mən bu mövzudan nəticə çıxarmaq istəmirəm, bəlkə də çoxları qohumlarının yanına gedirlər. Ümid edirəm ki, biz bu mesajı çox aydın şəkildə veririk və mən qardaş və bacılarımızı Ermənistanda qalmağı prioritet plan kimi qəbul etməyə çağırıram", - deyə Paşinyan qeyd edib.

***Ağarza Elçinoğlu***

# İrəvanda prokurora sui-qəsddə şübhəli bilinən şəxs saxlanıldı



***İrəvanda prokurorun həyatına sui-qəsddə şübhəli bilinən şəxs saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan İstintaq Komitəsinin mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki, 40 yaşlı kişi özü polis bölməsinə gələrək "Makarov" markalı tapançanı polisə təhvil verib. İlkin məlumata görə, insidentə səbəb düşmənçilik münasibətləri olub.

Qeyd edək ki, dünən İrəvan məhkəməsi yaxınlığında atışma olub, bir nəfər yaralanıb. Naməlum şəxs və ya şəxslər məhkəmə binasının yaxınlığında prokurora atəş açıb.

# İran Araz çayı ilə bağlı Ermənistana xəbərdarlıq etdi

***İran Araz çayının çirklənməsi ilə bağlı Ermənistana və mədən şirkətinə xəbərdarlıq edib.***

"Unikal" xəbər verir ki, bu barədə "Pars Today" yazıb.

İranın Su Ehtiyatlarının İdarə Edilməsi Şirkətinin rəsmisi İsa Bozorgzadə deyib: "Araz çayının suyunun keyfiyyəti və çirklənməsi İranın Energetika Nazirliyinin qırmızı xəttidir. Keyfiyyəti yoxlamaq üçün birgə işçi qruplarımız var və çirklənmə ilə bağlı bildirişlər Ermənistan tərəfinə və mədən şirkətinə göndərilib. Biz suyun keyfiyyətinin vətəndaşlarımızın sağlamlığına təhlükə törətməməsini izləyirik".

***Ağarza***

# ABŞ Ukraynaya istismar müddəti başa çatmış raketləri təhvil verib



***Amerika hakimiyyətinin Kiyevə verdiyi uzun mənzilli ATACMS raketləri Rusiya tanklarını vurmaq gücündə deyil.***

"Unikal" xəbər verir ki, bu barədə hərbi müşahidəçi Devid Ex "Forbes" jurnalına müsahibəsində deyib.

"ATACMS-in edə bilməyəcəyi bir çox şey var, o cümlədən ən qorunan döyüş maşınlarının məhv edilməsi...",- o, deyib.

Onun sözlərinə görə, bu cür raketlərin döyüş başlığında minə yaxın qumbaraya bənzər sursat var. Üstəlik, son dərəcə uğurlu bir vuruş olmadıqda, hər biri ayrı-ayrılıqda tanka ciddi ziyan vura bilməz. Ex Ukrayna Silahlı Qüvvələrinin ABŞ-dən istismar müddətini başa vurmaq üzrə olan raketləri almasına da diqqət çəkib.

***Gülayə Mecid***

# Brüsseldə Zəngəzur dəhlizinin Azərbaycana verilməsi qərarlaşdırılacaq

***Ermənistanın həmin dəhlizi (Zəngəzur dəhlizi - red.) Azərbaycana verməsi ilə bağlı geosiyasi konsensus var.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın "Joxovurd" qəzeti yazıb.

Qəzedə qeyd olunub ki, Zəngəzurda dəhliz açılması mövzusu bağlanmayıb: "Məsələ burasındadır ki, bütün geosiyasi mərkəzlər səslərini ucaltmaqda və o dəhliz haqqında danışmaqda davam edir.



Türkiyə və Azərbaycan hər dəfə bəyan edirlər ki, bu dəhliz açılmalıdır. Və heç bir başqa geosiyasi mərkəz o dəhlizin və ya yolun olmadığını elan etməyib. Belə bir təəssürat yaranır ki, dünyada Ermənistanın bu dəhlizi Azərbaycana verməsi ilə bağlı konsensus var, amma onun hansı sənəd əsasında, hansı statusda olması ilə bağlı konsensus yoxdur.

İndiyədək Nikol Paşinyan yol verəcəyini inkar etməsə də, dəhliz formalaşdırmaqdan yayınır. Bu baxımdan oktyabrın sonunda Brüsseldə keçiriləcək görüş həlledici əhəmiyyət kəsb edir və dəhliz-yolunun hansı sənəd əsasında veriləcəyi orada qərarlaşdırılacaq.

Beləliklə, vəziyyət onu göstərir ki, Ermənistanın həmin dəhlizi Azərbaycana verməsi ilə bağlı geosiyasi konsensus var, lakin Qərb heç bir halda onun Rusiyanın nəzarətində olmasını istəmir. Bununla belə, dəhliz olmalıdır. Hansı qiymətə və kimin nəzarətində olacağına bu ayın sonunda Brüsseldə aydınlıq gələcək".

***Ağarza Elçinoğlu***

# Levon Köçəryanın həbs müddəti daha 2 ay uzadıldı

***Ermənistanın eks-prezidenti Robert Köçəryanın oğlu Levon Köçəryanın həbs müddəti daha iki ay uzadılıb.***

"Unikal" xəbər verir ki, bu barədə onun vəkili Aleksandr Koçubayev "Facebook"da məlumat yayıb.

"Levon Köçəryanın həbs müddətinin uzadılması ilə bağlı vəsatət təmin edilib", - Koçubayev yazıb.

Bu məsələ ilə bağlı məhkəmə iclası 15 saat davam edib. Koçubayevin sözlərinə görə, hakim Masis Melkonyan müdafiə tərəfinin imtina barədə vəsatətini rədd edib və Levon Köçəryana qərəzsiz münasibət bildirib. O deyib ki, prokuror "Levon Köçəryanın nalayiq davranışı ilə bağlı heç bir faktiki məlumatı olmadığını, lakin o, həbsdə qalmalıdır" deyib.

Vəkil qeyd edib ki, müdafiə tərəfi etirazlarını bildirib, həmçinin məhkəməyə eksklüziv məlumatlar verib.



Xatırladaq ki, Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın oğlu İrəvanda keçirilən mitinqdə polis əməkdaşına qarşı zorakılıq tətbiq etməkdə ittiham olunur.

***Gülayə Mecid***

# "Rusiya və Türkiyə Yaxın Şərqdəki vəziyyətlə bağlı təmasdadır" - Lavrov

***"Rusiya və Türkiyə Yaxın Şərq ölkələrində vəziyyətin gərginləşməsi məsələsində təmasdadır".***

"Unikal" xəbər verir ki, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov Pxenyanda mətbuat konfransında deyib.

O, Türkiyənin sülh yolu ilə nizamlanma məqsədilə Fələstin-İsrail tərəfləri üçün qarant ölkələr sistemi yaratmaq təklifini belə şərh edib.

"Biz istənilən konstruktiv təklifləri müzakirə etməyə hazırıq. Ötən gün eşitdiyim bu təşəbbüs açıq şəkildə deeskalasiyaya nail olmaq və vəziyyəti normallaşdırmaq istəyi ilə diktə olunub ", - nazir əlavə edib.

Rusiya Xarici İşlər Nazirliyinin rəhbəri həmçinin qeyd edib ki, Rusiya hər iki tərəfin maraqlarının balansına əsaslanan istənilən yanaşmanın tərəfdarıdır. Onun fikrincə, Türkiyə belə bir tarazlığı təmin edə bilər.

***Gülayə Mecid***

# İsrail ölən hərbçilərinin sayını açıqladı

***Oktyabrın 7-də HƏMAS-ın hücumundan bu yana ən azı 306 İsrail əsgəri həlak olub.***

"Unikal" xəbər verir ki, bu barədə İDF sözçüsü Daniel Hagari məlumat yayıb.

Onun sözlərinə görə, Qəzza zolağında 203 israilli HƏMAS-ın girovluğundadır. O qeyd edib ki, son sutka ərzində ordu qüvvələri girovların vəziyyəti ilə bağlı məlumat toplamaq üçün Qəzza zolağında reydlər həyata keçirib.

Hagari əlavə edib ki, çərşənbə günü Qəzza zolağına qayıdan HƏMAS terrorçusu İsrail ərazisində tutularaq dindirilmək üçün təhvil verilib.

***Gülayə***

UNI-37_27 IYUI-QARA.qxd 10/19/2023 10:04 PM Page 16



# İki məğlubedilməzin qarşılaşması



***Milli komandaların oyunları səbəbindən yerli liqalarda yaranmış fasiləyə yekun vurulur. Artıq diqqət yenidən həm daxili çempionatlara, həm də Avropa kuboklarının matçlarına yönələcək.***

Əlbəttə, Avropa kuboku deyərkən, indi biz azərbaycanlılar üçün ”Qarabağ” göz önünə gəlir. Qurban Qurbanovun baş məşqçisi olduğu komanda Avropa Liqasının qrup mərhələsində uğurlu çıxış edir. Onlar hər iki matçda - ”Mölde” (Norveç) ilə ev, ”Hekken”lə (İsveç) səfər görüşündə qalib gəliblər (hər iki halda 1:0). Ağdam təmsilçisinin bu oyunlarda qol buraxmaması da müsbət mənada qeyd ediləcək faktlardandır. Avroliqanın növbəti iki turunda ”Qarabağ”ı daha ağır oyunlar gözləyir. Komanda qrupun şərikli liderlərindən olan ”Bayer”lə qarşılaşacaq. İlk matç oktyabrın 26-da Leverkusendə, cavab oyunu noyabrın 9-da Bakıda keçiriləcək.

İspaniyanın əfsanəvi futbolçularından olmuş Xabi Alonsonun rəhbərlik etdiyi ”Bayer” bu mövsüm möhtəşəm oyunu ilə diqqətləri üzərinə çəkib. Komanda Avropa Liqası ilə yanaşı Bundesliqada da liderdir. 41 yaşlı mütəxəssisin rəhbərlik etdiyi leverkuzenlilər 7 oyundan 19 xalla birinci yerdədirlər. 6 qələbə və 1 heç-heçəsi olan ”Bayer” bu mövsüm nə daxili liqada, nə də Avropa miqyaslı yarışda uduzub.

Onlar bundesliqada məhsuldar oyunları ilə seçilirlər. 7 matçda 23 qol vuran ”Bayer” bu göstəricidə də liderdir. Avropa Liqasında da ”aslanlar” ən çox qol vuran komandalardandır: onlar iki oyuna 6 dəfə rəqib qapısına yol tapıblar.

Beləliklə, ”Qarabağ”ın qarşıda bu mövsüm məğlubiyyətin nə olduğunu bilməyən ”Bayer”lə iki matç gözləyir. Həmin görüşlərdə Xabi Alonsonun komandasının uğurlu seriyasının qırılacağı ehtimalı az olsa da, futbolda hər zaman sensasiyaların qeydə alındığını da qeyd edək.

Yeri gəlmişkən, Qurban Qurbanovun baş məşqçisi olduğu komanda da qələbələri sıralamaqdadır. Ağdam təmsilçisi son olaraq Azərbaycan çempionatında (3 sentyabr) ”Səbail”ə uduzub. O vaxtdan komanda Misli Premyer Liqasında keçirdiyi 4, Avropa Liqasındakı 2 matçda yüzfaizli nəticə göstərib: 6 oyun, 6 qələbə...

Ümumilikdə isə ”Qarabağ” bu mövsüm Avropa kuboklarında dalbadal 7 oyundur uduzmur. Ağdam təmsilçisi son dəfə Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində ”Rakov”la Polşakı görüşdə (26 iyul) məğlub olub. Həmin matçdan sonrakı 7 oyunda ”Qarabağ” 2 dəfə heç-heçə edib, 5 dəfə isə qələbə qazanıb.

Beləliklə, statistikadan çıxış edərək biz gələn həftə Leverkusendə iki məğlubedilməzin qarşılaşacağını söyləyə bilərik. Həmin oyuna qədər isə ”Qarabağ” və ”Bayer”i daxili liqalarda oyunlar gözləyir. Ağdam təmsilçisi Misli Premyer Liqasının 10-cu turunda səfərdə ”Turan Tovuz”la (20 oktyabr), ”Bayer” isə rəqib meydanında ”Volfsburq”la (21 oktyabr) qarşılaşacaq.

# "Milan"ın futbolçusundan 14 gündür xəbər yoxdur

***İsveçin ”Norrçöpinq” klubunda icarə əsasında çıxış edən ”Milan”ın hücumçusu Emil Robak itkin düşüb.***



Qol.az xəbər verir ki, bu barədə ”Corriere della Sera” məlumat yayıb. Bildirilir ki, 20 yaşlı futbolçudan 14 gündür ki, heç bir xəbər yoxdur. ”Norrçöpinq” və oyunçunun ailəsi Emilin başına nə gəldiyini bilmirlər. Robak iki həftədir klubun məşqində iştirak etmir. O, komanda yoldaşlarına məşqə getməyəcəyi ilə bağlı xəbərdarlıq etməyib.

Bildirilir ki, ”Norrçöpinq”in idman direktoru Robakla əlaqə saxlamağa çalışsa da, buna nail ola bilməyib. Hazırda yerli mətbuatda futbolçunun itkin düşməsi ilə bağlı xəbərlər yayılır.

Robak 2020-ci ildən ”Milan”ın sistemindədir. Onun İsveç klubu ilə müqaviləsi bu ilin noyabrına qədərdir.

# Neymar əməliyyat olunacaq

***Braziliya millisinin və Səudiyyə Ərəbistanının “Əl-Hilal” klubunun futbolçusu Neymarın ayağındakı ön çarpaz bağı və meniskində yırtıq əmələ gəlib.***



”Unikal” xəbər verr ki, bu barədə Braziliya Futbol Konfederasiyasının Mətbuat Xidməti məlumat yayıb.

Qeyd edək ki, Neymar 2026-cı il Dünya Çempionatının seçmə mərhələsi çərçivəsində Uruqvay yığması ilə keçirilən oyunda (0:2) zədələnib.

# “Sabah” ilk oyunda məğlub oldu

***“Sabah” basketbol komandası FIBA Avropa Kubokunun müntəzəm mövsümündə ilk oyununa çıxıb.***

”Unikal” xəbər verir ki, Azərbaycan çempionu Monteneqro təmsilçisi “Mornar”ın qonağı olub.

Bar şəhərində keçirilən qarşılaşma meydan sahiblərinin 80:75 hesablı qələbəsi ilə bitib.

# İtaliya yığmasının oyunu azərbaycanlı hakimə tapşırıldı



***Azərbaycanlı hakim Elçin Məsiyev UEFA-dan daha bir təyinat alıb.***

“Unikal” xəbər verir ki, referi 17 yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının seçmə mərhələ oyunlarını idarə edəcək.

O, 11-ci qrupun II turunda İtaliya - Şimali İrlandiya, III turunda isə Yunanıstan - İtaliya qarşılaşmalarında ədalət təmsilçisi olacaq. Vüsal Məmmədov isə həmin görüşlərdə yan xətt hakimi qismində ona kömək edəcək.

Qeyd edək ki, İtaliya - Şimali İrlandiya oyunu oktyabrın 28-də, Yunanıstan - İtaliya matçı isə 31-də keçiriləcək. Qrupun bütün görüşləri İtaliyada olacaq.

# “Azərreyl” növbəti mərhələdə

***Azərbaycanı Çağırış Kubokunda təmsil edən qadın voleybolçulardan ibarət “Azərreyl” klubu ikinci oyununa çıxıb.***



Komanda 1/32 finalın cavab matçında Ukraynanın “Balta” kollektivi ilə qarşılaşıb.

Gənclər və İdman Nazirliyinin Voleybol Mərkəzində baş tutan qarşılaşmada “Azərreyl” rəqibini 3:0 (25:23, 25:15, 25:19) hesabı ilə məğlub edib.

Bununla da Azərbaycan təmsilçisi 1/16 finala vəsiqə qazanıb.

# Argentina millisi bu il qol buraxmayıb

***Argentina millisi bu il meydana çıxdığı heç bir matçda qol buraxmayıb.***

Qol.az xarici KİV-ə istinadən xəbər verir ki, komanda son olaraq DÇ-2026-nın seçmə mərhələsində Peruya 2:0 hesabı ilə qalib gəlib. 2023-cü ildə Lionel Skaloninin baş məşqçisi olduğu komanda 8 oyuna çıxsa da, heç bir qol buraxmayıb. Yığma Panama (2:0), Kurasao (7:0), Avstraliya (2:0), İndoneziya (2:0), Ekvador (1:0), Boliviya (3:0), Paraqvay (1:0) və Peru (2:0) üzərində qələbə qazanıb.

Qeyd edək ki, Argentina millisi bu il Uruqvay və Braziliya ilə qarşılaşacaq.